26 may 2023 №40 (2009) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri Qəzet 1991-ci ilin yanvarından çıxır

## 23 aylıq, 105 yaşlı Cümhuriyyət

### Üçrəngli bayrağınla məsud yaşa!...



Mayın 28-də Azərbaycanın istiqlal və istiqbal düşüncəli aydınlarının xalqımızın və ümumilikdə müsəlman Şərq dünyasının tarixinə bəxş etdikləri ilk Cümhuriyyətin yaranmasının 105 ili tamam olur. Bu günü tariximizə bəxş edən, yox yerdə bir dövlət bina edənləri bir daha minnətdarlıqla yada salırıq.

Cümhuriyyətimiz o dövrün regional və beynəlxalq siyasi reallıqları şəraitində cəmi 23 ay ömür sürsə də, tariximizdə silinməz izlər qoydu. 70 illik sovet ideologiyası bu izlərin üstünü örtsə belə...

*İyirmi səkkizində idi Mayısın,*
*Azərbaycan istiqlalə ermişdi...*

Cümhuriyyətin qurucusu Məhəmməd Əmin Rəsulzadə onun süqutundan illər sonra nisgilini ifadə edərkən gələcəyə ümidini də itirməmişdi. 1918-ci ildə səpilən istiqlal toxumunun bir gün təkrar cücərəcəyinə inanırdı...

*Milli fikir toxumları səpildi,*
*İslatdı torpağı axan qızıl qan.*
*Bu əkindən yarınki bir baharda*
*Əlbət bitər bir yeni Azərbaycan.*

"Biz Azərbaycanın 1918-ci ildə yaranmış ilk müstəqil Xalq Cümhuriyyətinin varisiyik. Bu müstəqillik Azərbaycan xalqının istiqlal arzusu ilə yaşayan vətənpərvər insanlarına, 1918-ci ildə Məhəmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov, Fətəli xan Xoyski, Nəsib bəy Yusifbəyli və bir çox başqalarının yaratdığı Xalq Cümhuriyyətinə bizim tərəfimizdən, bugünkü nəsillər tərəfindən ucaldılmış böyük bir abidədir" – müasir Azərbaycan dövlətinin memarı Heydər Əliyev Cümhuriyyətin tariximizdəki yerinə qiyməti bu sözlərlə vermişdi.

Cümhuriyyətin varisi olan Azərbaycan Respublikası özünün ən böyük bayramını artıq üçüncü ildir sərhədləri bütöv, suveren haqlarını, güc və qüdrətini dünyaya nümayiş etdirmiş dövlət kimi qeyd edir.

"Müstəqil Azərbaycan hər bir Azərbaycan vətəndaşı üçün qürur mənbəyidir. Biz Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının arzularını reallığa çevirdik. Mən tam əminəm ki, əgər Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları bugünkü Azərbaycanı görə bilsəydilər, onlar da ölkəmizlə fəxr edərdilər" – Prezident, Ali Baş Komandan İlham Əliyevin bu sözləri Ordumuzun rəşadəti, şəhid və qazilərimizin canı-qanı bahasına qazanılan Zəfərin təntənəsində tarixi anlam kəsb edir.

*Azərbaycan! Azərbaycan!*
*Ey qəhrəman övladın şanlı Vətəni!*
*Səndən ötrü can verməyə cümlə hazırız!*
*Səndən ötrü qan tökməyə cümlə qadiriz!*
*Üçrəngli bayrağınla məsud yaşa!*

İstiqlal bayramımız – Müstəqillik Günümüz mübarək!

## Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üçün ciddi imkanlar var

Ermənistan istisna olmaqla, Azərbaycanın Avrasiya İqtisadi Birliyinin üzvləri ilə əməkdaşlığı 30 il ərzində uğurla inkişaf edir. Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması üçün ərazi bütövlüyünün və suverenliyin qarşılıqlı şəkildə tanınması əsasında ciddi imkanlar var.



Azərbaycan Prezidenti İlham Əliyev bunu mayın 25-də Moskvada Ali Avrasiya İqtisadi Şurasının geniş tərkibdə iclasında çıxış edərkən deyib.

Azərbaycan Prezidenti Rusiya, Belarus, Qazaxıstan, Qırğızıstan və Ermənistanın təmsil olunduğu Avrasiya İqtisadi Birliyinin ali toplantısında qonaq qismində iştirak edib. Özbəkistan və Tacikistan prezidentləri iclasa videobağlantı vasitəsilə qoşulublar.

Dövlət başçısı qeyd edib ki, Azərbaycanın Avrasiya İqtisadi Birliyi ilə əmtəə dövriyyəsi 31 faiz artıb və 4,7 milyard dollar təşkil edib. Bu ilin yanvar-aprel aylarında qarşılıqlı ticarətin həcmi daha 38 faiz artıb: "Ötən il Avrasiya İqtisadi Birliyinə üzv ölkələrin Azərbaycanın xarici ticarət dövriyyəsində payı 9 faizə yaxın olub. Biz əmtəə dövriyyəsinin gələcək artımında böyük potensialın olduğunu görürük".

Son 20 il ərzində Azərbaycanın ümumi daxili məhsulunun 3 dəfədən çox artığını diqqətə çatdıran İlham Əliyev deyib ki, ölkənin xarici borcu ümumi daxili məhsulun 9 faizdən az hissəsini təşkil edir və ildən-ilə azalır. Azərbaycanın valyuta ehtiyatları isə xarici borcunu 10 dəfə üstələyir.

Azərbaycan Prezidenti vurğulayıb ki, bu gün qarşıda duran əsas məsələlərdən biri ixracın şaxələndirilməsidir: "Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat yollarının kəsişdiyi coğrafi məkanda yerləşir. Ölkədə 8 beynəlxalq aeroport fəaliyyət göstərir. Onlardan ikisi işğaldan azad olunmuş torpaqlarda – Füzuli və Zəngilanda son iki ildə tikilib. Doqquzuncu beynəlxalq aeroport azad olunmuş Laçında tikilir və 2025-ci ildə istismara veriləcək".

"Ölkəmiz illik 500 min ton yük dövriyyəsi ilə regionda ən iri hava yük donanmasına malikdir", – deyən İlham Əliyev əlavə edib ki, Azərbaycanın gəmiqayırma imkanları bizim Xəzərdəki qonşularımıza da təqdim olunub və müvafiq sifarişlərin qəbul edilməsi üzrə danışıqlar və fəal iş aparılır. Prezident onu da diqqətə çatdırıb ki, Azərbaycan Xəzər hövzəsində də ən böyük ticarət donanmasına malikdir. Bir ildə 15 milyon ton yükün daşınmasına hesablanmış Ələt Dəniz Limanı yaxın vaxtlarda modernləşdiriləcək və yükaşırmaların həcmi 25 milyon tona çatacaq.

Dövlət başçısı deyib ki, Azərbaycan Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinin əhəmiyyətli iştirakçısıdır. Ölkəmizin nəqliyyat-logistika infrastrukturu istənilən istiqamətdə daşımaların həyata keçirilməsinə imkan verir.

Prezident vurğulayıb ki, Azərbaycan həmçinin Zəngəzur dəhlizinin yaradılması təşəbbüsü ilə çıxış edib: "Zəngəzur dəhlizi təkcə Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə birləşdirməyəcək, beynəlxalq dəmiryol marşrutlarının bir hissəsinə çevriləcək".

***

İclasda çıxış edən Ermənistanın Baş naziri Nikol Paşinyan Azərbaycanla münasibətlərdən söz açaraq iki dövlətin bir-birinin ərazi bütövlüyünü tanımaq barədə razılığa gəldiklərini deyib. Bununla yanaşı o, Azərbaycanı guya Laçın dəhlizini bağlamaqda ittiham edib.

Daha sonra söz alan Prezident İlham Əliyev buna cavab verib: "Ermənistanın Baş naziri çıxışında ittihamlar səsləndirdi. Sizin də diqqət etdiyiniz kimi, mənim çıxışımda hər hansı ittihamlar irəli sürülmədi. Lakin mən bunu cavabsız qoya bilmərəm. Mən müzakirəni bir qədər başqa istiqamətə yönəltdiyimizi başa düşürəm. Lakin düşünürəm ki, bu, bir çoxlarına maraqlıdır. Azərbaycan heç bir dəhlizi bağlamayıb. Laçın-Xankəndi yoluna gəlincə, o açıqdır. Azərbaycanla Ermənistan sərhədində, hansı ki, sizin də tanıdığınız sərhəddə bütün beynəlxalq normalara uyğun olaraq, sərhəd-buraxılış məntəqəsi qurulub. Bu sərhəd-buraxılış məntəqəsi Rusiya sülhməramlı kontingentinin postundan 20 metr aralıda yerləşir".

davamı səh. 2-də

## "Şuşanın tək incisi" Budapeştdə göstərilib



Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu, Türk Dövlətləri Təşkilatının (TDT) Budapeşt şəhərindəki nümayəndəlik ofisi və Karoli Qaspar Universitetinin birgə təşkilatçılığı ilə görkəmli Azərbaycan şairəsi Xurşidbanu Natəvanın həyat və yaradıcılığına həsr edilmiş "Şuşanın tək incisi" sənədli-bədii filmi nümayiş etdirilib.

Nümayişdən əvvəl TDT-nin nümayəndəlik ofisinin rəhbəri Janos Hovari, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva və Azərbaycanın Macarıstandakı səfiri Tahir Tağızadə çıxış ediblər.

Çıxışlarda Natəvanın sonuncu Qarabağ xanının qızı, şairə, rəssam, xeyriyyəçi kimi Azərbaycan tarixi və mədəni irsində yerindən söz açılıb. 1982-ci ildə Şuşada Azərbaycanın Ümummilli lideri Heydər Əliyevin iştirakı ilə Natəvanın büstünün açıldığı qeyd edilib. Şairənin Ermənistanın işğalı zamanı güllələnmiş büstünün 2020-ci ildə Şuşanın azad olunmasından sonra öz yerinə qaytarıldığı və şəhərin yenidən dirçəlməsinin simvoluna çevrildiyi diqqətə çatdırılıb. 2022-ci ildə 190 illiyi dövlət səviyyəsində qeyd edilən Natəvanın Ağdamda erməni işğalı zamanı dağıdılmış qəbirüstü abidəsinin də yenidən hazırlanaraq Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə açıldığı bildirilib.

Çıxışlardan sonra "Şuşanın tək incisi" filmi təqdim olunub və tədbir iştirakçıları tərəfindən böyük maraqla qarşılanıb.

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun himayəsi ilə hazırlanan filmin ssenari müəllifi Ülviyyə Heydərova, quruluşçu rejissoru Zəhra Quliyevadır. Natəvan obrazını Xalq artisti Mehriban Zəkinin canlandırdığı filmin çəkilişləri Xan qızının ocağında – Şuşada ermənilər tərəfindən dağıdılan evində aparılıb.

Filmdən sonra Türkdilli dövlətlərin gənclərindən ibarət ansambl öz xalqlarına məxsus olan milli mahnıları, o cümlədən Azərbaycan mahnılarını ifa ediblər.

Tədbirdə Qazaxıstan, Qırğızıstan, Özbəkistan diplomatik nümayəndəliklərinin rəhbərləri, yerli elm, mədəniyyət, media nümayəndələri, Azərbaycan diasporunun üzvləri və türkdilli dövlətlərdən tələbələr iştirak ediblər.

Qeyd edək ki, filmin premyerası 2022-ci ilin dekabrında Bursada (Türkiyə) keçirilən "Şuşa Günləri"ndə olub.

## "Viva opera" qala-konserti keçiriləcək




İyunun 11-də Heydər Əliyev Mərkəzində "Viva opera" qala-konserti keçiriləcək. Konsertin təşkilatçısı Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrıdır.

Teatrdan verilən məlumata görə, konsertdə italyan opera müğənnisi Ferruccio Furlanetto, Rusiya Böyük Teatrının solistləri – həmyerlilərimiz Dinara Əliyeva və Elçin Əzizov, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının aparıcı solistləri – Xalq artistləri Fidan Hacıyeva, Samir Cəfərov, Əkrəm Poladov, Gülnaz İsmayılova, Əməkdar artistlər Afaq Abbasova, İnarə Babayeva, Ramil Qasımov, Səbinə Vahabzadə, Fərid Əliyev, Cahangir Qurbanov, İlham Nəzərov, Anton Ferştandt, İlahə Əfəndiyeva, Fəridə Məmmədova, Tural Ağasıyev, solistlər Fatimə Cəfərzadə, Nina Makarova, Taleh Yahyayev, Ataş Qarayev, Mahir Tağızadə, Günel Hacıyeva və teatrın xor kollektivi çıxış edəcəklər.

Teatrın simfonik orkestrinin müşayiəti ilə gerçəkləşəcək proqramda Ü.Hacıbəyli, M.Maqomayev, C.Verdi, C.Puççini, J.Bize, C.Rossini, P.Çaykovski, P.Maskanyi, Q.Donisetti, V.A.Motsart, N.Rimski-Korsakov, J.Massne və digər bəstəkarların əsərləri səslənləndiriləcək. Orkestrin dirijoru Əməkdar artist Əyyub Quliyev, xormeysteri Əməkdar incəsənət xadimi Sevil Hacıyevadır.

## Pianoçu Adilə Əliyevaya Fransanın "Fəxri Legion" ordeni təqdim olunub

Fransanın Azərbaycandakı Səfirliyində soydaşımız, tanınmış musiqiçi, Azərbaycanın Əməkdar artisti Adilə Əliyevaya bu ölkənin "Fəxri Legion" ordeninin təqdim olunması mərasimi keçirilib.



Tarixi vətəninin hüdudlarından kənarda da şöhrət qazanmış Adilə Əliyeva 30 ildən çoxdur Fransada yaşayır. Tanınmış pianoçu Fransa Prezidentinin 2022-ci il 13 iyul tarixli fərmanı ilə dünyada klassik musiqinin təbliğinə görə bu ölkənin ən yüksək dövlət mükafatı olan "Fəxri Legion" ordeninin kavaler dərəcəsi ilə təltif olunub.

Fransanın milli bayramı ərəfəsində imzalanan fərmanda bildirilib ki, pianoçu, klassik musiqi festivalının təsisçisi Adilə Əliyeva musiqi sahəsində 46 illik xidmətinə əsasən bu mükafata layiq görülüb.

Ondan bir neçə gün əvvəl isə Adilə Əliyeva Azərbaycan Prezidentinin sərəncamı ilə Azərbaycan musiqisinin dünyada tanıdılması, gənc nəsil musiqiçilərin hazırlanmasında xidmətlərinə, habelə Fransada onun adını daşıyan mötəbər beynəlxalq müsabiqənin təşkilinə görə "Dostluq" ordeni ilə təltif edilib.

davamı səh. 3-də

"Müasir Musiqi Günləri" başa çatdı

səh. 3

Yunanıstan Ali Məhkəməsi Eldar Mansurovun müəlliflik hüququna dair qərar verib
səh. 6


Qusar teatrı Şabranda tamaşa göstərib
səh. 4



# Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üçün ciddi imkanlar var

## Putin: "Əsas vacib olan iki ölkə arasında ərazi bütövlüyünə dair razılığın olmasıdır, qalan məsələlər ikinci dərəcəlidir"

əvvəli səh. 1-də

Dövlət başçısı diqqətə çatdırıb ki, bugünkü gün həmin sərhəd-buraxılış məntəqəsindən Azərbaycanın Qarabağda yaşayan erməni sakinləri sərbəst şəkildə, maneəsiz Ermənistana gedə bilirlər. O cümlədən BQXK xətti ilə daşınan xəstələr, Xankəndi şəhərindən yola düşən təcili tibbi yardım maşınları da həmin yoldan maneəsiz keçib gedirlər.

"Düşünürəm ki, bu tribunadan əsaslandırılmamış ittihamlar irəli sürmək üçün istifadə etmək lazım deyil. Haqqında danışdığım Zəngəzur dəhlizinə gəlincə isə, əgər mənim çıxışıma diqqətlə qulaq asdınızsa, orda deyildi ki, Azərbaycan Zəngəzur dəhlizinin yaradılması təşəbbüsünü irəli sürüb. İstənilən təşəbbüsü irəli sürmək bizim haqqımızdır, hansını ki, biz düzgün, legitim və ağlabatan hesab edirik, eyni zamanda, Azərbaycan-Ermənistan münasibətlərinin nizamlanmasına cəlb olunan tərəflər və Rusiya tərəfindən dəstəklənir", – deyə Azərbaycan Prezidenti fikrini yekunlaşdırıb.

***

Azərbaycanla Ermənistan arasında münasibətlərə iclasa sədrlik edən Rusiya Prezidenti Vladimir Putin də toxunub. O bildirib ki, əsas məsələ iki ölkə arasında ərazi bütövlüyünə dair razılığın olmasıdır. Dəhliz, yol terminləri əsas deyil, əsas vacib olan Azərbaycanla Ermənistan arasında ərazi bütövlüyünə dair razılığın olmasıdır, qalan məsələlər ikinci dərəcəlidir.

"Bütün MDB ölkələri Birlik ərazisindəki münaqişələrin, o cümlədən Ermənistan və Azərbaycan arasında münaqişənin bitməsində maraqlıdır. Ümid edirik ki, bu gün (25 may – red.) Azərbaycan və Ermənistan liderləri ilə üçtərəfli görüşdə iqtisadi inkişaf məsələlərində uyğun razılaşmalar əldə olunacaq", – deyə Rusiya Prezidenti vurğulayıb.

***



Mayın 25-də Azərbaycan Prezidenti İlham Əliyevin Rusiya Prezidenti Vladimir Putinlə geniş tərkibdə görüşü də olub.

İlham Əliyev Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması işində səylərinə görə Rusiya tərəfinə minnətdarlığını bildirərək deyib: "Biz bu səyləri çox yüksək dəyərləndiririk. Bu gün keçiriləcək üçtərəfli görüşdə Sizin iştirakınız da Azərbaycan və Ermənistanın, nəhayət, sülh razılaşmasına gəlməsinə Rusiya Federasiyasının necə böyük əhəmiyyət verdiyini göstərir. Fikrimcə, Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıması barədə Ermənistan rəhbərliyinin bu yaxınlardakı bəyanatlarından, eləcə də Azərbaycan Respublikasının sahəsini konkret rəqəmlərlə göstərməklə Azərbaycanın ərazi bütövlüyünün tanınmasından sonra sülh sazişinin digər maddələrinin razılaşdırılması məsələsi daha asan olacaq. Çünki bu, başlıca amil idi ki, biz razılığa gələ bilmirdik".

***

Sonra Vladimir Putinin Ermənistanın hökumət başçısı Nikol Paşinyanla görüşü keçirilib.

Daha sonra Rusiya Prezidenti Vladimir Putin, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan Baş naziri Nikol Paşinyanın iştirakı ilə görüş keçirilib.

# Elmira Axundova 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib

Xalq yazıçısı, ədəbiyyatşünas, publisist, tərcüməçi Elmira Axundova 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.

Prezident İlham Əliyev mayın 25-də bu barədə sərəncam imzalayıb. Sərəncamla Elmira Hüseyn qızı Axundova Azərbaycan Respublikasının ictimai-siyasi və mədəni həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə təltif olunub.

Qeyd edək ki, mayın 26-da Elmira Axundovanın 70 yaşı tamam olur.

2018-ci ildə "Xalq yazıçısı" fəxri adına layiq görülən Elmira Axundova üç çağırış Milli Məclisin (2005-2020) deputatı olub. 2020-ci ildə Azərbaycan Respublikasının Ukraynada fövqəladə və səlahiyyətli səfiri təyin olunmuşdu. Bu günlərdə səfir vəzifəsindən geri çağırılıb. 2003-cü ildə "Şöhrət" ordeni ilə təltif olunub.

Elmira Axundovanı əlamətdar yubileyi və yeni dövlət təltifi münasibətilə təbrik edirik.

# Arxiv sənədlərinin dövlət mühafizəsinə təhvil verilməsi qaydası təsdiq olunub

"Arxiv fondu sənədlərinin daimi dövlət mühafizəsinə təhvil verilməsi Qaydası" təsdiq edilib. Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarı mayın 24-də Baş nazir Əli Əsədov tərəfindən imzalanıb.

Qərar 1999-cu ildə qəbul edilmiş "Milli arxiv fondu haqqında" qanuna 2022-ci ildə edilən dəyişikliklər və yeni qanunun tətbiqi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin fərmanın müvafiq yarımbəndinin icrasını təmin etmək məqsədilə qəbul olunub.

Qaydanın "Ümumi müddəalar"ında qeyd olunur ki, milli arxiv fondunun komplektləşdirilməsi mənbələri fəaliyyəti nəticəsində ictimai-siyasi, iqtisadi, elmi, sosial-mədəni, tarixi əhəmiyyətli sənədləri yaranan və onları daimi dövlət mühafizəsinə məcburi qaydada təhvil verməli olan təşkilatlar, habelə arxiv sənədlərini müqavilə yolu ilə təhvil verən qeyri-dövlət idarə, müəssisə və təşkilatları və fiziki şəxslərdir. Arxiv fondu sənədləri daimi mühafizə məqsədilə dövlət arxivlərinə təhvil verilmək üçün hazırlanarkən yenidən ekspertizadan keçirilir, daimi mühafizə olunan sənədlərin və işlərin siyahıları, məhv edilmək üçün ayrılan sənədlərin və işlərin aktları tərtib edilir.

# "Heydər Əliyev və musiqi mədəniyyəti"

Əməkdar mədəniyyət işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Səadət Təhmirazqızının "Heydər Əliyev və musiqi mədəniyyəti" kitabı çapdan çıxıb.



Mayın 24-də Azərbaycan Bəstəkarlar İttifaqında yeni nəşrin təqdimat mərasimi keçirildi. Tədbirdə mədəniyyət nazirinin müavini Murad Hüseynov, tanınmış musiqi xadimləri iştirak edirdilər.

Tədbiri Azərbaycan Bəstəkarlar İttifaqının (ABİ) sədri Xalq artisti Firəngiz Əlizadə açdı. Bildirdi ki, Bəstəkarlar İttifaqı "Heydər Əliyev İli" çərçivəsində silsilə tədbirlər həyata keçirir. Ümummilli liderin musiqi və mədəniyyət sahəsinə diqqətinə həsr olunan bir neçə elmi konfrans təşkil edilib. "Heydər Əliyev və musiqi mədəniyyəti" kitabı da yubiley ilinin növbəti layihələrindən biridir.

Heydər Əliyevlə bağlı xatirələrini dilə gətirən Firəngiz Əlizadə qeyd etdi ki, Ulu öndərin musiqiçilərə göstərdiyi qayğı və diqqət musiqi tariximizə yeni-yeni əsərlər bəxş edib. Çünki o, qayğısı ilə yanaşı, öz dəyərli tövsiyələri ilə də bəstəkarlarımıza, ifaçı və musiqişünaslara düzgün istiqamət verib. Bu mənada Heydər Əliyevin 1979-cu ildə Azərbaycan Bəstəkarlar İttifaqının V qurultayındakı məruzəsinin yer aldığı nəşr bəstəkarların masaüstü kitabıdır. Heydər Əliyev bəstəkarlarla görüşlərində hər zaman deyirdi: "Mahnı janrı gözəldir, duyumludur, lakin mən istərdim ki, bizim bəstəkarlar irihəcmli əsərlər, operalar, baletlər yazsınlar və dünyada təbliğ olunsunlar".

ABİ-nin sədri Heydər Əliyevin Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Tofiq Quliyev kimi görkəmli bəstəkarlarla olan səmimi dostluq münasibətlərindən, musiqi janrlarına xüsusi diqqət yetirməsindən də söz açdı.

Musiqişünas Səadət Təhmirazqızı müəllifi olduğu kitab haqqında məlumat verdi, Heydər Əliyevin mədəniyyət sahəsinə olan diqqət və qayğısı barədə danışdı. Dedi ki, kitab Azərbaycanın musiqi ictimaiyyəti adından Ümummilli liderin 100 illiyinə töhfədir. Belə bir ədəbiyyat bu günün və gələcəyin musiqiçiləri üçün masaüstü kitab olacaq. Müəllif nəşrin ərsəyə gəlməsində əməyi keçənlərə təşəkkürünü bildirdi.

Kulturoloq, professor Fuad Məmmədov "Heydər Əliyev və Azərbaycan mədəniyyəti" mövzusunda çıxışında qeyd etdi ki, Ulu öndərin mədəniyyətimizə, musiqimizə sonsuz vurğunluğu bu sahədə çalışanları hər zaman yeni yaradıcılıq axtarışlarına ruhlandırıb. Heydər Əliyev tərəfindən əsası qoyulmuş müasir mədəniyyət siyasətindən söz açan kulturoloq bu siyasətin aparıcı istiqamətinin keçmişi, milli mədəni sərvətləri qoruyub saxlamaq, indinin müsbət nailiyyətlərini dəstəkləmək və inkişaf etdirməkdən ibarət olduğunu dedi. Vurğulandı ki, Ulu öndərin digər sahələrdəki kimi, dahiyanə uzaqgörənliyi, mükəmməl bilik və bacarığı mədəniyyət sahəsində də dərin və silinməz iz qoyub.

Kitabın redaktorları – sənətşünaslıq üzrə fəlsəfə doktorları Leyla Zöhrabova və Jalə Qulamova nəşr haqqında fikirlərini bölüşdülər, Heydər Əliyevin Azərbaycan bəstəkarları ilə münasibətlərindən bəhs etdilər.

Bədii hissədə Ulu öndərin musiqi xadimləri ilə görüşlərini əks etdirən videokadrlar nümayiş olundu. Əməkdar artist Ramil Qasımov Heydər Əliyevin sevimli mahnıları silsiləsindən Müslüm Maqomayevin "Azərbaycan", Cahangir Cahangirovun "Alagöz" mahnılarını ifa etdi. Xalq artistləri Ülviyyə Hacıbəyova və Yegana Axundova Soltan Hacıbəyovun "Uvertüra"sını təqdim etdilər. Xalq artisti Firəngiz Əlizadənin xor və simfonik orkestr üçün "Zəfər marşı" əsərinin Azərbaycan Dövlət Simfonik Orkestri və Azərbaycan Dövlət Xor Kapellasının ifasında lent yazısı nümayiş olundu.

**Lalə Azəri**

# "Tarix" animasiya filmi Xorvatiyada festivalda iştirak edir

Mayın 25-də Xorvatiyada 14-cü "VAFI & RAFI" Beynəlxalq Uşaq və Gənclər Animasiya Film Festivalı başlayıb. İyunun 4-dək davam edəcək festivala çoxsaylı ölkələrdən yüzlərlə ekran əsəri təqdim olunub.

Festivalda ölkəmizi Ceyhun Türksoyun "Tarix" qısametrajlı animasiya filmi təmsil edir. Film festivalın əsas müsabiqə proqramına seçilib.

Mədəniyyət Nazirliyi tərəfindən 2020-ci ildə elan edilmiş "Böyük Qayıdış" qısametrajlı bədii, sənədli və animasiya film layihələri müsabiqəsinin qalib işlərindən olan "Tarix" nazirliyin dəstəyi ilə "OB FILM" tərəfindən istehsal olunub. Filmin quruluşçu rejissoru Ceyhun Türksoy, ssenari müəllifi və prodüseri Orxan Behbid, bəstəkarı Şəmsi Tağıyevdir.

Film I Qarabağ müharibəsindən sonrakı dövrdə doğulan, ötən illər ərzində Qarabağın işğalı ilə heç cür barışmayan və sonda 27 illik işğalın üstündən qürurla xətt çəkən oğlanın hekayəsidir.

Qeyd edək ki, "Tarix" filmi bundan öncə Bakıda keçirilən 5-ci "ANIMAFILM" festivalında, eləcə də Hindistanda və Filippində festivallarda iştirak edib.

# Vurğun ocağında Ulu öndərin xatirəsi anılıb

Mayın 25-də Səməd Vurğunun Ev-Muzeyində Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş tədbir keçirildi. Tədbir çərçivəsində həmçinin "Heydər Əliyev və Vurğun ocağı" adlı fotosərginin açılışı oldu.



Tədbirdə mədəniyyət, incəsənət xadimləri, vurğunsevərlər və digər qonaqlar iştirak edirdilər.

Muzeyin direktoru Vurğun Vəkilov qeyd etdi ki, Ulu öndər Heydər Əliyev Səməd Vurğunun ocağında bir neçə dəfə olub. Onun nəinki bu muzeyə, həmçinin Səməd Vurğun irsinə, böyük şairin ailəsinə diqqəti və qayğısı unudulmazdır.

Diqqətə çatdırıldı ki, Səməd Vurğunun Ev-Muzeyi Azərbaycanda yazıçı və bəstəkarların xatirəsini əbədiləşdirmək üçün yaradılmış ilk memorial muzeydir. 1974-cü ildə Azərbaycan Nazirlər Sovetinin qərarı ilə yaradılan muzey 1975-ci il oktyabrın 6-da Ümummilli lider Heydər Əliyevin iştirakı ilə Azərbaycanda "Sovet ədəbiyyatı günləri"ndə açılıb. Həmin gün, sözün həqiqi mənasında, xalqımızın və poeziyamızın bayramına çevrilib. Heydər Əliyevin Səməd Vurğunun şəxsiyyətinə və yaradıcılığına olan ehtiram onun övladlarına münasibətdə də davam edib. Dahi siyasətçi şairin övladlarının ədəbiyyatımızın və mədəniyyətimizin inkişafında fəaliyyətlərini yüksək dəyərləndirib. Bu gün muzeyin əməkdaşları Səməd Vurğun irsini yaşatmaq və təbliğ etməklə həm də Ulu öndərin bu sahədə tövsiyələrini həyata keçirirlər.

Muzeyin baş mühafizi Xanım Şadlinskaya Ulu öndərin Səməd Vurğunun yaradıcılığına münasibətindən bəhs etdi. Bildirdi ki, şairin yaradıcılığına, eləcə də Vurğun ocağına diqqət Prezident İlham Əliyev tərəfindən də davam etdirilir. Ölkə başçısının sərəncamı ilə muzey yenidən təmir edilərək ziyarətçilərin ixtiyarına verilib.

Çıxışlardan sonra Heydər Əliyevin Səməd Vurğunun Ev-Muzeyinin açılışında iştirakı və şairin dillər əzbəri olan "Azərbaycan" şeirinin bir bəndini söylədiyi görüntüləri əks etdirən videoçarx nümayiş etdirildi.

Bədii hissədə solistlər Atabəy İsmayılov (tar), Səidə Tağızadə (piano), Ümidə Abbasova (violin) və Mahir Tağızadə (vokal) Vasif Adıgözəlovun "Qərənfil", xalq mahnısı "Laçın", Qara Qarayevin "Yeddi gözəl" baletindən "Vals" və Müslüm Maqomayevin "Odlar yurdu" əsərlərini ifa etdilər.

Sonda qonaqlar "Heydər Əliyev və Vurğun ocağı" fotosərgisi ilə tanış oldular.

**Nurəddin**

# "İstiqlal yazıları" kitabının təqdimatı olub

Mayın 25-də Azərbaycan Yazıçılar Birliyinin (AYB) Natəvan klubunda Xalq Cümhuriyyəti dövründə çap olunmuş "Azərbaycan" qəzetinin rus dilində nəşrinin redaktoru, tanınmış jurnalist, tənqidçi, tərcüməçi və teatrşünas Xəlil İbrahimin "İstiqlal yazıları" kitabının təqdimatı keçirilib.

Əməkdar elm xadimi Tofiq Məlikli təqdim olunan kitab haqqında məlumat verib. Bildirib ki, kitabda Xəlil İbrahimin müxtəlif illərdə yayılmış məqalələri toplanıb.




Azərbaycan jurnalistikasının əsasını qoyanlardan olan Xəlil İbrahim 1892-ci ildə Şuşada doğulub. İbtidai təhsilini Şuşada rus-tatar məktəbində alıb. 1907-ci ildə atası vəfat etdikdən sonra ailəsi ilə Bakıya köçərək təhsilini orada davam etdirib. 1914-cü ildən ədəbi-bədii fəaliyyətə başlayıb. 1918-ci ildə "Azərbaycan" qəzetinin yaradıcılarından biri və rusca nəşrin redaktoru olub. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan və respublikada kommunist rejimi qurulduqdan sonra X.İbrahim müxtəlif vəzifələrdə çalışmaqla Azərbaycan xalqının inkişafı ilə bağlı problemlər haqqında 1923-1930-cu illərdə məqalələrlə qəzetlərdə çıxış edib. Bu illərdə o, milli teatr və mədəniyyətin inkişafı, problemləri ilə bağlı onlarla məqalə, resenziya yazıb, Azərbaycan (türk) ədəbi lüğətinin hazırlanmasında fəal iştirak edib.

Xəlil İbrahimin tərcüməçi kimi Azərbaycan ədəbiyyatı qarşısında xidmətləri böyükdür. O, Şekspirin, Şillerin, A.Tolstoyun və bir sıra başqa Avropa və rus yazıçılarının əsərlərini Azərbaycan dilinə tərcümə edib. 1937-ci ildə amansız repressiya dəhşətlərinin qurbanı olub.

Kitabın tərtibçisi, bəzi məqalələri ərəb qrafikalı əlifbadan latın qrafikalı əlifbaya transliterasiya edən və ön sözün müəllifi, tarix üzrə fəlsəfə doktoru Akif Aşırlı onun necə ərsəyə gəlməsindən danışıb. Bildirib ki, bu gün Cümhuriyyətimizin qurucularından və həmin dövrün ən parlaq simalarından biri olan Xəlil İbrahim haqqında Azərbaycan ictimaiyyətinin yetərincə məlumatı yoxdur. O, bir müddət "Azərbaycan" qəzetinin redaktoru vəzifəsində çalışıb. X.İbrahim milli mətbuatımızın, publisistikamızın və Cümhuriyyət ideyalarının formalaşmasında çox böyük rolu, xidməti olan bir şəxsiyyətdir. Onun hətta teatrşünaslıqla bağlı dövrün qəzetlərində çox mükəmməl məqalələri, təhlilləri var. Bu gün burada təqdim olunan "İstiqlal yazıları" kitabında X.İbrahimin "Şuşadan yazılar", "Şuşadan məktublar" adlı bir neçə məqaləsi də yer alır. Bu məqalələri o, 1916-cı ildə "Açıq söz" qəzetində yazmağa başlayıb və sonradan bunu "Azərbaycan" qəzetində davam etdirib. X.İbrahim həmçinin "Kommunist" qəzetində də yazılarla çıxış edib. O, Cümhuriyyət ideyaları ilə yaşayan insan idi. Bu kitabda da onun Cümhuriyyət, istiqlal mövzulu yazıları yer alıb.

Tarix elmləri doktoru, professor Solmaz Rüstəmova-Tohidi qeyd edib ki, X.İbrahim çox zəngin biliyə sahib insan idi. Onun dilçiliklə, Azərbaycan ədəbi dilinin qaydaları ilə bağlı yazılarını xüsusi qeyd etmək olar. 1926-cı ildə keçirilən Türkoloji Qurultayın təşəbbüskarlarından biri də X.İbrahim olub. O, həmçinin Türkiyə-Azərbaycan münasibətlərində qardaş yardımlaşmalarına dəstək verən publisistik yazılarla çıxış edən insan idi. Onun mədəniyyət problemləri ilə bağlı yazıları da xüsusi əhəmiyyət daşıyır".

Digər çıxış edənlər də yeni çap olunmuş kitab və X.İbrahim haqqında fikirlərini bölüşüblər.

# Pianoçu Adilə Əliyevaya Fransanın “Fəxri Legion” ordeni təqdim olunub

## “Müstəsna barmaqları, mükəmməl zövqü və heyrətamiz emosiyaları olan ifaçıdır...”

əvvəli səh. 1-də

Mərasimdə çıxış edən Fransanın ölkəmizdəki səfiri Ann Buayon bildirib ki, bu mükafat Napoleon Bonapart tərəfindən 1802-ci ildə cəngavər ordenləri nümunəsində təsis olunub. Ordenin kavaleri titulu Fransada böyük xidmətlərə görə verilir.

Bakı şəhərində anadan olan Adilə Əliyeva Bülbül adına Orta İxtisas Musiqi Məktəbini və Pyotr Çaykovski adına Moskva Dövlət Konservatoriyasını bitirib. Onun 50-dən çox ölkədə konsertləri təşkil edilib.

Adilə Əliyeva pianoçuların bir çox mötəbər beynəlxalq müsabiqələrinin laureatıdır. Onun solo konsertlərinin səs yazısı, o cümlədən Ulu öndər Heydər Əliyevə və BMT-də Azərbaycan Gününə həsr etdiyi ifaları müxtəlif ölkələrin televiziya və radio arxivlərində saxlanılır, habelə kompakt-disk və DVD şəklində buraxılıb.

Adilə Əliyeva konsert fəaliyyəti ilə yanaşı, BMT-nin sülh elçisi qismində Azərbaycan musiqi sənətini dünyada təbliğ edərək böyük işlər görür. Onun sülh elçisi kimi ideyalarından biri Azərbaycan və Fransanın şəhərləri arasında çoxtərəfli münasibətlərin inkişafıdır. Pianoçu Fransa nümayəndə heyətinin tərkibində öz əcdadlarının vətəni olan Şamaxıda olub, onun səyləri nəticəsində bu şəhərlə Fransanın Qayar şəhəri qardaşlaşıb.



Pianoçunun daha bir təşəbbüsü onun adını daşıyan beynəlxalq musiqi müsabiqəsidir (“Adilia Alieva International Music Competition”). 1996-cı ildən etibarən Fransada və İsveçrədə iki ildən bir təşkil edilən müsabiqə dünyanın müxtəlif ölkələrindən, o cümlədən Azərbaycandan olan istedadları üzə çıxarır, onları tanıdır və təhsillərinin xaricdə davam etdirilməsi üçün şərait yaradır. Artıq ənənə halını alan və populyar olan bu tədbir Fransanın mədəni həyatının ayrılmaz hissəsinə çevrilib.

Fransanın Annemas şəhərində yaşayan A.Əliyeva 2001-ci ildən Fransa Beynəlxalq Musiqi Akademiyasının direktorudur. Burada özünün görkəmli müəllimlərinin prinsiplərini həyata keçirərək və malik olduğu zəngin təcrübəyə əsaslanaraq müxtəlif səviyyədə və yaşda olan tələbələrin hazırlanmasının effektiv təhsil sistemini yaradıb.

“Nyu-York Tayms” qəzetinin nüfuzlu musiqi tənqidçilərindən biri, “Motsartdan bizim zamanımıza qədər” ensiklopediyasının müəllifi Harold Şonberq “American Record Guide” nəşrinin səhifələrində yazıb ki, “Adilə Əliyeva müstəsna barmaqları, mükəmməl zövqü və heyrətamiz emosiyaları olan gözəl pianoçudur. O, musiqidə ən yüksək zirvəyə yüksəlib”.

Adilə Əliyevanın “Fəxri Legion” ordeni ilə təltif olunması onun fransız mədəniyyətinə töhfələrinə də verilən yüksək qiymətdir.

Qeyd edək ki, Fransanın yüksək dövlət təltifi olan “Fəxri Legion” ordeninin üç fərqlənmə dərəcəsi var: kavaler (al lent üzərində gümüş nişan), zabit (rozetli lentdə qızıl nişan) və komandor (al lent üzərində qızıl nişan).

# Dünya Yaddaşının Beynəlxalq Reyestrinə daha 64 nümunə daxil edilib

Xəbər verdiyimiz kimi, 10-24 may tarixlərində Parisdə keçirilən UNESCO İcraiyyə Şurasının 216-cı sessiyasında təşkilatın Dünya Yaddaşının Beynəlxalq Reyestrinə (Memory of the World International Register) yeni nominasiyalar daxil edilib. Onların arasında Azərbaycan və türk tarixinə aid irs əsərləri və sənədlər: Xurşidbanu Natəvanın “Gül dəftəri” – illüstrasiyalı şeirlər albomu, Qacarlar hakimiyyəti dövründə beynəlxalq münasibətlərə dair sənədlər, Şeyx Səfiəddin Ərdəbili türbəsinin kitabları, türkmən, qırğız və özbək xalqlarının əlyazma və qədim irs yadigarları var.

UNESCO İcraiyyə Şurasının qərarı ilə Dünya Yaddaşının Beynəlxalq Reyestrinə ümumilikdə 64 sənəd və irs nümunəsi daxil edilib və siyahıya alınan kolleksiyaların sayı 494-ə çatıb.

UNESCO-nun baş direktoru Odri Azule bununla bağlı deyib: “Sənədli irs bəşəriyyətin ümumi yaddaşıdır. Yazılı və səsli irs nümunələri tədqiqat məqsədləri üçün qorunmalı və mümkün qədər çox insanla paylaşılmalıdır. Bu sənədlər bizim kollektiv tariximizin tərkib hissəsidir”.

UNESCO tərəfindən 1992-ci ildən həyata keçirilən “Dünya yaddaşı” proqramının əsas məqsədi kağız üzərində, audiovizual, rəqəmsal və ya hər hansı digər formada mühüm və böyük dəyərə malik sənədlər və ya sənədlər kolleksiyalarının geri qaytarıla bilməyən itkisinin qarşısını almaqdır. Təşkilata üzv ölkələr arasında 2017-ci ildə yaranmış fikirayrılığı səbəbindən Dünya Yaddaşının Beynəlxalq Reyestrinə sənədlərin daxil edilməsi prosesi dayandırılmışdı və bu il mayın 24-də UNESCO İcraiyyə Şurasının qərarı ilə altı il davam edən fasilədən sonra reyestrə 64 sənəd salınıb. Bunu alqışlayan baş direktor Odri Azule qeyd edib ki, üzv ölkələr bu prosesə böyük maraq göstərib. 56 ölkə və təşkilatın bu yeni əlavələri ilə indi reyestrdə dünyanın bütün regionlarından 494 sənədli irs kolleksiyası var. Daşdan sellüloidə, perqamentdən metal disklərə qədər müxtəlif formalarda saxlanılan bu ümumbəşəri dəyərə malik simvolik irs nümunələri indi gələcək nəsillər üçün qorunur.

UNESCO bildirir ki, sənədli irs nümunələri bütün dünyada təhlükə altındadır. Dünyanın bir çox yerlərində, xüsusən də inkişaf etməkdə olan ölkələrdə sənədli arxivlər bərbad vəziyyətdədir. Daşqınlar və yanğınlar illər ərzində minlərlə kağız qeydləri məhv edib, audiovizual materiallar yoxa çıxıb. Maqnit lentləri zaman keçdikcə pisləşir və onları oynada bilən cihazlar sıradan çıxır. Bu materialları qorumaq və rəqəmsallaşdırmaq üçün kollektiv səylərə ehtiyac duyulur, əks halda, onlar həmişəlik itirilə bilər. UNESCO bu məqsədlə Afrika ölkələrində kitabxanalara, arxivlərə və muzeylərə dəstək verir.

Qeyd olunur ki, son otuz ildə UNESCO 94 ölkədə “Dünya yaddaşı” proqramı çərçivəsində milli komitələr yaradıb. Təşkilat ötən ilin əvvəlindən sənədli irsin inventarlaşdırılması, qorunması və hamı üçün əlçatan olmasını təmin etmək üçün 40-a yaxın ölkəyə kömək edib.

# Kitab və mütaliə cəmiyyətin inkişafında strateji resurs kimi

## Ölkəmiz beynəlxalq forumda təmsil olunub

24-26 may tarixlərində Özbəkistanın Buxara şəhərində “Kitab və mütaliə cəmiyyətin inkişafında strateji resurs kimi” adlı II Birlik Forum keçirilib. “Mərkəzi Asiya – 2023: elm, təhsil, mədəniyyət və biznesdə internet və kitabxana-informasiya resursları” mövzusunda XVI Beynəlxalq Konfrans çərçivəsində təşkil edilən tədbirdə ölkəmizi Azərbaycan Milli Kitabxanasının direktoru professor Kərim Tahirov təmsil edib.

Konfransın plenar iclasında Özbəkistanın İnformasiya və Kütləvi Kommunikasiya Agentliyinin direktoru Əsədcan Xocayev, Azərbaycan Milli Kitabxanasının direktoru Kərim Tahirov, Rusiya Dövlət Kitabxanasının baş direktoru, BAE-nin vitse-prezidenti Vadim Duda, Beynəlxalq Kitabxana Assosiasiyaları və İnstitutları Federasiyasının (IFLA) prezidenti Barbara Lison, Moskva Dövlət Mədəniyyət İnstitutunun rektoru Yekaterina Kudrina, Tacikistan Milli Kitabxanasının direktoru Fayzalizoda Jumaxon Xol, Kitabxanalar üçün Elektron İnformasiya Beynəlxalq Konsorsiumunun (eIFL) direktoru Rima Kuprite, Özbəkistan Milli Kitabxanasının direktoru Umida Teşabayeva və digər iştirakçılar çıxış ediblər.




Azərbaycan Milli Kitabxanasının direktoru Kərim Tahirov məruzə və təqdimatla çıxış edərək mütaliəyə marağın artırılması, kitabxana-oxucu əlaqələrinin genişlənməsi barədə danışıb. O, son illər istər iş proseslərində, istərsə də xidmət sahələrində innovasiyaların tətbiqinin Azərbaycan Milli Kitabxanasının qarşısında duran əsas vəzifələrdən biri olduğunu söyləyib və bu istiqamətdə görülən işlər, istifadəçilərin kitabxana-informasiya təminatında tətbiq edilən yeni layihələr barədə məlumat verib.

Direktor gənclərin mütaliə mədəniyyətinin formalaşması məqsədilə Milli Kitabxananın nəzdində yaradılan “Açıq kitabxana” layihəsi, kitabxananın saytında virtual rejimdə respublika kitabxanalarına, mütəxəssislərə “Metodiki xidmət”, “Sənədlərin sifarişi və elektron çatdırılması”, həmçinin “Virtual sifariş” və “Biblioqrafik sorğu” kimi xidmət növləri, “Musiqi kitabxanası” və “Audiokitab” layihəsindən danışıb. O, həmçinin mütəmadi olaraq virtual yolla istifadəçilərin ixtiyarına verilən digər zəngin sənəd-resurs kompleksi olan və əməkdaşlar tərəfindən yaradılan tammətnli elektron məlumat bazalarının hazırlandığını qeyd edib, tariximizə, mədəniyyətimizə, Qarabağ məsələsinə və digər mühüm sahələrə dair virtual sərgilərin hazırlandığını vurğulayıb. Kitabxanaların işinin daha da təkmilləşməsi prosesinə xidmət edən innovasiyaların tətbiqinin günün tələbi olduğu diqqətə çatdırılıb.

# ATMU Venesuelanın ali təhsil müəssisələri ilə də əlaqələr quracaq

Venesuela Bolivar Respublikasının ölkəmizdəki səfiri Kristofer Alberto Martinez Berroteran Azərbaycan Turizm və Menecment Universitetində (ATMU) olub.

ATMU-dan bildirilib ki, görüşdə rektor İlham Mədətov tədris prosesinin təşkili, fakültə və ixtisasların turizm sənayesində rolu, eləcə də universitetin beynəlxalq əlaqələrinin inkişafını şərtləndirən prioritet məsələlərdən danışıb.

Səmimi görüşə görə minnətdarlığını bildirən səfir iki ölkə arasında mövcud əlaqələrdən söz açıb, ATMU ilə Venesuelanın ali təhsil müəssisələri arasında mümkün əməkdaşlıq imkanlarının nəzərdən keçirilməsinin hər iki tərəf üçün faydalı olacağını deyib.

Yaxın zamanlarda Venesuelanın müvafiq ali məktəbləri ilə ATMU arasında ilk onlayn tədbirin və səfirin növbəti tədris semestri ərzində turizm ixtisası üzrə təhsil alan tələbələrlə görüşünün təşkil edilməsi qərara alınıb.

# Teatr Muzeyində “İstiqlala doğru”

Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyində 28 May – Müstəqillik Gününə həsr olunmuş “İstiqlala doğru” adlı tədbir keçirilib.



Muzeydən bildirilib ki, Dövlət Himninin səsləndirilməsi ilə başlayan tədbirdə əvvəlcə ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş bütün şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Muzey əməkdaşları müstəqillik tariximizə dair məruzələrlə çıxış ediblər.

Bədii hissədə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti Vüqar Hacıyev və tələbələrinin ifasında vətənpərvərlik mövzusunda musiqi nömrələri səsləndirilib.

# “Müasir Musiqi Günləri” festivalı başa çatdı

Xəbər verdiyimiz kimi, 21-25 may tarixlərində Elm və Təhsil Nazirliyi və Mədəniyyət Nazirliyinin dəstəyi ilə Bakıda ilk “Müasir Musiqi Günləri” festivalı keçirilib.

Mayın 24-də Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında festivalın bağlanış konserti oldu.

Tamaşaçılar arasında Prezident Administrasiyası Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, musiqisevərlər və digər qonaqlar vardı.



Konsertdən əvvəl çıxış edən musiqişünas Sara Timurova festival haqqında məlumat verdi. Qeyd etdi ki, festival çərçivəsində konsertlərlə yanaşı, ustad dərsləri, məşğələlər, mühazirələr də təşkil olunub: “Biz bu festival boyu XX əsr bəstəkarları ilə yanaşı, çağdaş Azərbaycan bəstəkarlıq məktəbinin qabaqcıl nümayəndələrinin də əsərlərini dinlədik. Bəstəkarlarımızın əsərlərinin Qərb məktəbi ilə oxşarlıq və fərqliliyini sezə bildik. Festivalın ən önəmli məsələlərindən biri də o oldu ki, biz Azərbaycanda neçə-neçə istedadlı ifaçını kəşf etdik. İnanırıq ki, bu festival Azərbaycanın müasir bəstəkarlıq və ifaçılıq məktəbinə öz töhfəsini verəcək”.

Sonra musiqiçilər səhnəyə dəvət olundu.

Konsertdə “Cadenza” orkestrinin (bədii rəhbər Türkər Qasımzadə, konsertmeyster Samir Əsədov, dirijor Orxan Həşimov) müşayiətində Zakir Əsədov (piano), Mahir Tağızadə (bariton) və Fidan Ağayeva-Edler (piano) rəngarəng ifaları ilə tamaşaçıların qəlbini oxşamağı bacardılar.

İsmayıl Hacıbəyov və Rüfət Xəlilovun “Kapriççio”, Ayaz Qəmbərlinin “Melanxoliya”, macar bəstəkar György Ligetinin “Piano və orkestr üçün konsert” əsərləri ifa edildi.

Qeyd edək ki, “Müasir Musiqi Günləri” festivalına mayın 25-də Nizami Kino Mərkəzində “Ligeti: portret” filminin nümayişi ilə yekun vurulub.

**Nurəddin**

# İtalyan opera müğənnisinin Bakıda ustad dərsi

Azərbaycan Dövlət Akademik Opera və Balet teatrının direktoru Xalq artisti Yusif Eyvazovun təşəbbüsü ilə məşhur italyan opera müğənnisi Federico Longhin bir neçə gündür teatrda ustad dərsləri keçir.

İtalyan müğənni öz təcrübəsini bölüşməklə yanaşı, sənət ocağının solistləri ilə fərdi məşğələlər də aparır.

Layihə teatrın yaradıcılıq baxımından kadr potensialının və peşəkarlığın yüksəldilməsinə yönəlib və silsilə şəkildə davam edəcək.

# Tarixi tikiliyə müdaxilə faktı aşkarlanıb

Paytaxtın Səbail rayonu ərazisində, Səməd Vurğun küçəsi 16 ünvanında yerləşən və tarixi tikili kimi mühafizə altında olan binaya müdaxilə faktı aşkarlanıb. Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin əməkdaşları tərəfindən əraziyə baxış keçirilən zaman binanın sütunlarının boya ilə rəngləndiyi müəyyən edilib.

Dövlət Xidmətindən verilən məlumata görə, faktla bağlı qanuna müvafiq tədbirlər görülməkdədir.

Məlumatda diqqətə çatdırılır ki, “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinə əsasən, abidələrin bədii-estetik görkəminin dəyişdirilməsi, uçurulması və onlar üçün təhlükə yarada biləcək təmir, inşaat, təsərrüfat və digər işlərin aparılması qadağandır.

“Abidələrin qorunması haqqında Azərbaycan Respublikası qanunvericiliyini pozan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, cinayət, inzibati, intizam və mülki məsuliyyət daşıyırlar.

İstifadəsində və ya mülkiyyətində tarixi tikililər (abidələr) olan vətəndaşlarımızı tarixi tikililərimizin (abidələrimizin), eləcə də şəhərimizin bədii-estetik görünüşünün qorunmasına həssas yanaşmağa çağırır, bərpa işləri aparmaq istəyən şəxslərdən qanunvericiliyin tələblərinə riayət olunmasını tələb edirik”, – deyə məlumatda bildirilir.

# Çin incəsənəti ilə bağlı sərgidə “açıq qapı günləri” keçirilib



Xəbər verdiyimiz kimi, Azərbaycan Milli İncəsənət Muzeyində 29 mart – 30 iyun tarixlərində “Çin incəsənəti Azərbaycan Milli İncəsənət Muzeyinin kolleksiyasından” adlı sərgi keçirilir. Azərbaycan Mədəniyyət Nazirliyi, Çin Xalq Respublikasının ölkəmizdəki səfirliyi və muzeyin birgə təşkilatçılığı ilə gerçəkləşən sərgi çərçivəsində 13-21 tarixlərində “açıq qapı günləri” olub.

Muzeydən bildirilib ki, “Huawei Technologies Azerbaijan” MMC şirkətinin dəstəyi ilə keçirilən aksiya müddətində sərginin ümumilikdə 3 mindən çox ziyarətçisi olub.

“Çin incəsənəti Azərbaycan Milli İncəsənət Muzeyinin kolleksiyasından” sərgisi təkcə tarixi eksponatlar toplusu deyil, həm də ziyarətçilərin Çin xalqının mədəniyyəti və adət-ənənələri ilə yaxından tanış olması üçün bir fürsətdir.

Sərginin kuratoru və ideya müəllifi Milli İncəsənət Muzeyinin direktoru professor Çingiz Fərzəliyev, layihənin koordinatoru Könül Rəfiyevadır.

Sərgi çərçivəsində Azərbaycan Dillər Universitetinin nəzdində fəaliyyət göstərən Konfutsi İnstitutu tərəfindən “Xəttatlıq sənəti”, “Çay incəsənəti”, “Kung fu incəsənəti” və “Kağız kəsmə sənəti” mövzularında ustad dərsləri də həyata keçirilir.

# Masallıda "Etno-caz" konserti

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr edilmiş silsilə tədbirlər çərçivəsində paytaxtda fəaliyyət göstərən musiqi kollektivlərinin may ayı üçün regionlara qastrol səfərləri başlanıb.



Fərdin Məhəmmədzadənin "Nəva" qrupu və tarzən Səxavət Məmmədov N.Gəncəvi adına Masallı rayon Mədəniyyət Mərkəzində "Etno-caz" konserti ilə çıxış edib.

Əvvəlcə Masallı Xalq teatrının rejissoru Cəmaləddin Əliyev qonaqları salamlayaraq Mədəniyyət Nazirliyinin dəstəyi ilə reallaşan qastrol səfərləri haqqında məlumat verib.

Sonra səhnə musiqiçilərin ixtiyarına verilib. Konsertdə muğam və cazın sintezindən ibarət kompozisiyalar ifa olunub. "Nəva" qrupunun üzvləri Fərdin Məhəmmədzadə (piano), Şəmsi Məmmədov (bass), Cəfər Həsənov (zərb alətləri) və Səxavət Məmmədovun (tar) rəngarəng ifaları maraqla qarşılanıb.

# Qazaxlı rəssam Avropa Təbiət Elmləri Akademiyasının medalına layiq görülüb

Azərbaycan Rəssamlar İttifaqı, Rusiya Peşəkar Rəssamlar İttifaqı və Beynəlxalq Müasir İncəsənət Akademiyasının fəxri üzvü Nəcməddin Hüseynov Avropa Təbiət Elmləri Akademiyasının "Şərəf" medalına layiq görülüb.




1955-ci ildə Qazax rayonunun Çaylı kəndində dünyaya göz açan və hazırda həmin kənddə yaşayıb-yaradan N.Hüseynov 1977-1981-ci illərdə Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbində təhsil alıb.

Əsasən abstraksionizm və ekspressionizm üslublarında işləyən rəssamın "Qaçqınlar", "Hücumdan sonra", "Xocalı faciəsi", "Həlledici an", "Müharibəli Novruz", "Savaşın sonu" və s. əsərlərində müstəqillik dövrünün təzadlı hadisələrinə münasibəti özünün obrazlı-assosiativ bədii həllini tapıb. Müəllifin "Külək", "Bizim məhəllə", "Ay işığı", "Göyəzən", "Çaylı", "Noyabr" və s. əsərləri isə təbiətin və günün müxtəlif anlarının yaddaqalan, duyğulandırıcı bədii təsvirləridir.

Rəssamın Gəncədə, Qazaxda və Bakıda sərgiləri təşkil olunub, ümumilikdə 200-dən çox əl işi nümayiş etdirilib.

Avropa Təbiət Elmləri Akademiyası 2002-ci ildə Almaniyanın Hannover şəhərində yaradılıb. Avropa xalqlarının ümumi elm və mədəniyyətinin bir-birinə yaxınlaşdırılması və demokratik dəyərlərin təbliği ilə məşğuldur.

# Şair İnqilab İsaqın 70 illik yubileyi qeyd olunub

Göygöl rayon Heydər Əliyev Mərkəzində Azərbaycan Yazıçılar Birliyinin (AYB) üzvü, Prezident təqaüdçüsü, şair İnqilab İsaqın 70 illik yubileyinə həsr edilmiş tədbir keçirilib.



Göygöl Rayon İcra Hakimiyyəti və Şəmkir RMİ-nin Göygöl nümayəndəliyinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə icra başçısı Elvin Paşayev ölkə rəhbərliyi tərəfindən ziyalılara, yaradıcı insanlara göstərilən diqqət və qayğıdan danışıb.

AYB-nin katibi İlqar Fəhmi yerli yazarlarla layihələrin həyata keçirilməsinin əhəmiyyətini qeyd edib.

Şəmkir RMİ-nin Göygöl rayonu üzrə nümayəndəsi Nurəddin Babazadə, AYB-nin Gəncə bölməsinin rəhbəri, Əməkdar mədəniyyət işçisi Xəzangül Hüseynova, "Cavadxan" Tarix və Mədəniyyət Fondunun vitse-prezidenti Müzadil Həsənov və başqaları yubilyar şairin yaradıcılığından, Azərbaycan ədəbi mühitinin inkişafından və bu istiqamətdə həyata keçirilən layihələrdən danışıblar.

Sonda İnqilab İsaqa hədiyyələr təqdim olunub. Şairin sözlərinə bəstələnmiş musiqi nömrələri ifa edilib, şeirləri səsləndirilib.

# Yaddaşlarda əbədi yaşayan lider

Zərdab şəhər Uşaq incəsənət məktəbi, rayon Heydər Əliyev Mərkəzi və MKS-nin birgə əməkdaşlığı ilə "Daima yaddaşlarda yaşayan lider" adlı konsert proqramı keçirilib. Heydər Əliyevin dahi bəstəkar Üzeyir Hacıbəyli haqqında söylədiyi fikirlərdən ibarət olan səs yazısının dinlənilməsi ilə başlayan konsertdə rəngarəng musiqi və rəqs nömrələri təqdim edilib.

***

Sabirabad rayon Heydər Əliyev Mərkəzində "Ulu öndər Heydər Əliyevin irsi milli sərvətimizdir" mövzusunda elmi-praktik konfrans keçirilib.

***



Qax rayon Uşaq incəsənət məktəbinin fortepiano şöbəsində "Kiçik konservatoriya" adlı məktəbdaxili müsabiqə keçirilib. Qaliblər diplom və hədiyyələrlə mükafatlandırılıb.

***



Şəmkir RMİ-nin təşkilatçılığı ilə Gədəbəy rayon Heydər Əliyev Mərkəzində "Ümummilli lider Heydər Əliyev – 100 və Azərbaycan mədəniyyəti" adlı fotosərgi keçirilib.

***



Qazax rayon Mədəniyyət Mərkəzi və rayon MKS-nin birgə təşkilatçılığı, Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Qazax rayon komitəsinin dəstəyi ilə "Mədəniyyətə bağlı ömür" adlı tədbir keçirilib. Çıxış edənlər Ulu öndərin Azərbaycan mədəniyyətinin inkişafına qayğısından danışıblar.

***

Qəbələ rayon Mədəniyyət Mərkəzində rayon Uşaq incəsənət məktəbinin Ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş hesabat konserti keçirilib. Ulu öndərin həyat yolunu əks etdirən videoçarx nümayiş olunduqdan sonra şagirdlərin ifasında musiqi nömrələri təqdim edilib.

***




Gəncə şəhər F.Əmirov adına 1 nömrəli Uşaq musiqi məktəbində Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş silsilə tədbirlər çərçivəsində violin müəllimi Surxay Əhmədovun sinif konserti təşkil edilib. Şagirdlər Azərbaycan və xarici ölkə bəstəkarlarının əsərlərini səsləndiriblər.

***

Sumqayıtda ümumtəhsil məktəblərinin şagirdləri və uşaq-gənclər inkişaf mərkəzlərinin dərnək üzvləri arasında Ümummilli liderin 100 illik yubileyi münasibətilə "El bilir ki, sən mənimsən" adlı respublika rəsm və əl işləri müsabiqəsi keçirilib. Şəhər Bülbül adına 2 nömrəli Uşaq incəsənət məktəbinin şagirdi Zeynal Əmiraslanov II yerə layiq görülüb. Şagirdi müsabiqəyə müəllimi Səadət Şahbazova hazırlayıb.

***

Siyəzən rayon Heydər Əliyev Mərkəzi və Gənclərin İnkişaf və Karyera Mərkəzi (GİKM) Siyəzən nümayəndəliyinin birgə təşkilatçılığı ilə gənclər arasında "Nə? Harada? Nə zaman?" adlı intellektual yarış keçirilib. Yarış Heydər Əliyevin azərbaycançılıq ideologiyasının gənclər arasında təbliği, gənclərin dünyagörüşünün və intellektual səviyyəsinin artırılması məqsədilə reallaşıb.

**Hazırladı: N.Məmmədli**

# Bölgələrdən müxtəlif səpkili xəbərlər



Gəncə şəhər MKS-nin 15 saylı kitabxana filialında dahi Azərbaycan şairi Məhəmməd Füzulinin "Meyvələrin söhbəti" alleqorik poeması əsasında hazırlanmış nağıl-tamaşa nümayiş olunub. M.Ş.Vazeh adına 16 saylı tam orta məktəbin 4-cü sinif şagirdləri tərəfindən nümayiş olunan tamaşadan sonra səhnə işinin müzakirəsi aparılıb.

Yevlax şəhər Heydər Əliyev Mərkəzində "Ailədaxili zorakılığa yox deyək!" adlı seminar keçirilib. Şagirdlərə ailədaxili zorakılığın fəsadları, ailədə böyüyən uşaqlara psixoloji təsirləri barədə ətraflı məlumat verilib.

Qazax şəhər 1 nömrəli Musiqi məktəbində "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə, narkomanlığa, digər zərərli vərdişlərə qarşı mübarizə" mövzusunda maarifləndirici seminar keçirilib. Qeyd olunub ki, narkotik vasitələrdən istifadə insanı gələcəyindən məhrum, cəmiyyətdən təcrid edir və o, bu bəladan qurtula bilmir. Şagirdləri maraqlandıran suallar cavablandırılıb.



Şirvan şəhər Uşaq musiqi məktəbində "İriformalı əsərlərin təhlili və ifası" mövzusunda klassik musiqi axşamı keçirilib. Şagirdlər Motsart, Bax, Haydn, Bethoven və digər bəstəkarların əsərlərini təhlil və ifa ediblər.

Hacıqabul şəhər Uşaq musiqi məktəbində "1 incilər" adlı konsert proqramı təşkil olunub. 1-ci sinif şagirdləri bir-birindən maraqlı musiqi və rəqs nömrələri ilə çıxış ediblər.

Ağdaş Dövlət Rəsm Qalereyasının təşkilatçılığı ilə qalereyanın tərkibində fəaliyyət göstərən rəsm dərnəyinin üzvlərinə toxuculuq təlimi keçirilib.

Yardımlı rayon Heydər Əliyev Mərkəzi və Gənclərin İnkişaf və Karyera Mərkəzi Yardımlı



nümayəndəliyinin birgə təşkilatçılığı ilə "Ağ ölümə yox deyək!" adlı tədbir keçirilib. Çıxışlarda bütün dünyanı ağuşuna alan narkomaniyanın yaratdığı fəsadlardan, həmçinin bu bəladan qurtulmaqda təbliğatın önəmindən bəhs olunub.

# Şuşa şəhərinin tarixi ilə bağlı daha bir kitab

AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutunun Şimali Azərbaycanın XIX-XX əsrin əvvəlləri tarixi şöbəsinin aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Gülcamal Sadıxovanın "Şuşa şəhərinin tarixi (XIX – XX əsrin əvvəlləri)" kitabı nəşr olunub.

İnstitutdan bildirilib ki, ilk dəfə 2004-cü ildə rus dilində işıq üzü görən kitabın elmi redaktorları AMEA-nın müxbir üzvü, professor Mahmud İsmayılov, tarix üzrə fəlsəfə doktoru Hacı Həsənov, rəyçiləri tarix üzrə fəlsəfə doktorları Vidadi Umudlu və Ənvər Məmmədovdur.

İlk nəşrdən keçən müddət ərzində davam etdirilən tədqiqatlar nəticəsində elmi dövriyyəyə yeni sənəd və materiallar gətirilib, bununla da kitabın yeni nəşrinin hazırlanması zərurəti yaranıb. Kitabda Şuşa şəhərinin qısa tarixi oçerki verilib. XIX-XX əsrin əvvəllərində şəhərin ərazisi, əhalisi, inzibati-idarə sistemi, iqtisadi, ictimai-siyasi və mədəni həyatı hərtərəfli tədqiq olunub.

# Yubiley ili bizi daha məsul vəzifələrə səfərbər edib

"Azərbaycan peşəkar milli teatrının 150 illik yubileyinin qeyd edilməsi haqqında" dövlət başçısının sərəncamı Lənkəran teatrının kollektivini də yeni sənət nailiyyətlərinə səfərbər edib. Üstəlik, bu il bizim üçün də ayrıca yubileydir.

Məxəzlərdən məlumdur ki, Lənkəranda peşəkar teatr mühiti XIX əsrin sonlarında və XX əsrin əvvəllərində formalaşıb. 1934-1949-cu illərdə burada Dövlət Dram Teatrı fəaliyyət göstərib. Sonra keçmiş SSRİ hökumətinin qərarı ilə müttəfiq respublikaların çoxunda, o cümlədən Azərbaycanda əyalət teatrlarının böyük qismi özünümaliyyələşdirməyə keçirilib və fəaliyyətini dayandırıb. Lənkəran Dövlət Dram Teatrı da fəaliyyətini 24 il sonra, 1973-cü ilin dekabrın 6-da Ümummilli lider Heydər Əliyevin xeyir-duası ilə bərpa edib.

Ötən 50 ildə teatr öz repertuarında Azərbaycan dramaturqlarının əsərləri ilə yanaşı, əcnəbi müəlliflərin də əsərlərinə mühüm yer ayırmaqla, təkcə respublikamızda deyil, həmçinin bir sıra xarici ölkələrdə keçirilən festivallarda uğurla çıxış edib.

Məlumat üçün bildirək ki, hazırda teatrda 2 Xalq artisti, 3 Əməkdar artist, 1 Prezidentin fərdi təqaüdçüsü və 3 Prezident mükafatçısı, həmçinin onlarla sənət fədaisi çalışır. Onların hər biri öz zəhmətləri, istedadları hesabına tamaşaçı rəğbətini qazanıb.

Bu gün teatrda əsas səylərimiz daha çox tamaşaçıların cəlb olunmasına yönəldilib. Bunun üçün sosial şəbəkələrin imkanlarından da fəal istifadə olunur və səhnə əsərlərinin reklam-tanıtımı öz nəticəsini verir. Əvvəllər hər tamaşaya bilavasitə kassadan bilet alıb gələnlərin sayı 15-20 nəfər olurdusa, indi bu rəqəm 45-60 nəfərədək qalxıb. Təbii ki, əsas vəzifə tamaşaçı rəğbətini maraqlı səhnə əsərləri ilə artırmaqdır.




Cari ilin əvvəlindən 4 tamaşanın ("Nuru babanın sərgüzəştləri", "Qapıda öpüş" – müəllif və quruluşçu rejissor İ.Hacılı; "Gəl, baharım, gəl, yazım" – müəllif və quruluşçu rejissor A.Babalı; "Yaşayan ölü" – müəllif K.Məmmədova, quruluşçu rejissor A.Babalı) premyerasını keçirmişik. Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş Q.Nəcəfzadənin "İki iyirmi üç arasında" (quruluşçu rejissor Emil Əskərov), Ç.Aytmatovun "Cəmilə" (quruluşçu rejissor İmran Ali Qurban), Ə.Haqverdiyevin "Kimdir müqəssir?" vodevilinin motivləri əsasında "Müqəssir", Avstriya dramaturqu Piter Turrininin "Bu da axırı" (hər iki tamaşaya Abdulla Elşadlı quruluş verir), Təranə Vahdin "Mən toz dənəsiyəm" (quruluşçu rejissor Emil Əskərov) əsərlərinin də məşqləri davam etdirilir. Cari mövsümün sonunadək bu tamaşaları sənətsevərlərin ixtiyarına verməyi nəzərdə tutmuşuq.

Bundan əlavə, sentyabrın sonlarından – artıq yeni mövsümdə repertuar planından kənar rumın yazıçısı Matey Vişnekin "Bu ölkə sənin qədrini bilir" pyesinin motivləri əsasında "Telefon aparatı", M.Bulqakovun "Ağıldankəm Jurden", Hüseyn Cavidin "İblisin intiqamı" kimi əsərlər üzərində də işləməyi düşünürük.

Teatrımızın yubileyi ilə əlaqədar müəyyən planlarımız var. O cümlədən teatrımızın aparıcı səhnə ustaları, Xalq artistləri Qabil Quliyevin və Böyükxanım Əliyevanın, aktrisa Şahrud Mehdiyevanın səhnə fəaliyyətlərinin 50 illiyini qeyd edəcəyik. Teatrımızın 50 illik yubileyi şərəfinə Lənkəranda teatr festivalının keçirilməsini də nəzərdə tutmuşuq.

Kollektiv qastrol səfərlərinə də böyük önəm verir. İyun ayından etibarən "Heydər Əliyev İli" və Azərbaycan peşəkar milli teatrının 150 illik yubileyi münasibətilə layihə çərçivəsində teatrımızın truppası rayonun yaşayış məntəqələrini gəzəcək, tamaşa və əyləncəli proqramlarla çıxış edəcək. "Heydər Əliyev İli" çərçivəsində teatrın repertuarında yer alan mərhum yazıçı-dramaturq Məmmədhüseyn Əliyevin "Prokuror" (quruluşçu rejissorlar Oruc Qurbanov və Anar Babalı) tamaşası ilə respublikamızın bölgələrinə qastrol səfərinə çıxmaq niyyətindəyik.

**Ağaddin Babayev**
**Lənkəran Dövlət Dram Teatrının ədəbi-dram hissə rəhbəri**

# Qusar teatrının "Adət"i Şabranda nümayiş olunub

Xəbər verdiyimiz kimi, "Heydər Əliyev İli" çərçivəsində və Azərbaycan peşəkar milli teatrının 150 illik yubileyi münasibətilə teatr və musiqi kollektivlərinin regionlarda qastrol səfərləri təşkil edilir.



Qusar Dövlət Ləzgi Dram Teatrının kollektivi mayın 24-də Şabran rayon Mədəniyyət Mərkəzində türk yazıçısı Turqut Özakmanın "Adət" tamaşasını nümayiş etdirib.

Əsər iki ailə arasında uzun illər baş verən və yaşanan qan davasının törətdiyi amansız hadisələrin acı nəticəsindən və bu qanlı intiqam hissindən qurtula bilməyən insanları necə bir aqibət gözlədiyindən bəhs edir. Tamaşa böyük maraqla qarşılanıb.

# "Əsrlər boyu xalqların dostluğu"

## Krasnoyarskda Heydər Əliyevin 100 illiyi münasibətilə konsert

Rusiya Federasiyasının Krasnoyarsk şəhərində müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Əsrlər boyu xalqların dostluğu" adlı konsert keçirilib.

Diasporla İş üzrə Dövlət Komitəsindən verilən məlumata görə, tədbir Rusiyanın Sibir və Uzaq Şərq regionu üzrə ən böyük konsert müəssisəsi olan Krasnoyarsk Diyar Filarmoniyasında təşkil edilib. Krasnoyarskdakı "Azərbaycan milli-mədəni muxtariyyəti" regional ictimai təşkilatının təşəbbüsü, diyar qubernatorunun dəstəyi, ölkəmizin Rusiyadakı səfirliyinin, Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin, Mədəniyyət Nazirliyinin və Diasporla İş üzrə Dövlət Komitəsinin iştirakı ilə təşkil edilən tədbir Azərbaycan mədəniyyəti günləri çərçivəsində gerçəkləşib.

Tədbirdən əvvəl Krasnoyarsk diyarı qubernatorunun müavini vəzifəsini icra edən Vasili Nelyubin Azərbaycan nümayəndə heyəti ilə görüşüb. Azərbaycan və Rusiya xalqları arasında mədəni əlaqələr, dostluq və diasporlararası münasibətlər müzakirə olunub.

Azərbaycan mədəniyyət nazirinin müavini Murad Hüseynov Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı tədbirin Krasnoyarsk hökumətinin dəstəyi ilə keçirilməsinin yüksək qiymətləndirildiyini bildirib. Nazir müavini mədəniyyət sahəsində əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində müvafiq addımların atılmasının zəruriliyini diqqətə çatdırıb.

Rusiyadakı səfirliyimizin müşavir-elçisi Aqşin Əliyev, Diasporla İş üzrə Dövlət Komitəsinin nümayəndəsi T.Səfərov çoxlu sayda soydaşımızın yaşadığı Krasnoyarsk şəhərində Heydər Əliyevin 100 illik yubileyinin qeyd edilməsinin əhəmiyyətini vurğulayıblar.

Krasnoyarsk rəhbərliyinə səfirliyik adından Heydər Əliyevin "Rusiyada ruhumun bir parçası var" fotoalbomu və "Qarabağ işğaldan əvvəl və sonra" kitabı, Azərbaycanın milli və mənəvi dəyərlərini əks etdirən xatirə hədiyyələri təqdim olunub.

Konsert zamanı Krasnoyarsk diyarı qubernatorunun müavini vəzifəsini icra edən Vasili Nelyubin və Azərbaycan mədəniyyət nazirinin müavini Murad Hüseynov çıxış edərək iki ölkənin mədəni irsinin qarşılıqlı olaraq təkcə paytaxtlarda deyil, həm də regionlarda yayılmasını müasir mədəniyyət əməkdaşlığının fəqrləndirici xüsusiyyəti kimi səciyyələndiriblər. Vaxtilə Heydər Əliyevin SSRİ-nin rəhbər şəxslərindən biri kimi Sibirin ən mühüm nəqliyyat arteriyası olan Baykal-Amur magistralının tikintisinin həyata keçirilməsinə və SSRİ-də sənaye, maşınqayırma, təhsil və mədəniyyətin inkişafına əvəzsiz töhfələr verdiyi xatırlanıb.

Tədbirdə Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlunun adından diyar rəhbərliyinə və təşkilatçılara ünvanlanmış təşəkkür məktubu oxunub. Müraciətdə ölkələrimiz arasında hərtərəfli əlaqələrin möhkəmlənməsində Heydər Əliyevin rolu qeyd olunub.

Konsert proqramında Krasnoyarsk diyarı incəsənət ustalarının, o cümlədən soydaşlarımızdan ibarət rəqs heyətinin ifasında maraqlı repertuar təqdim edilib. Tədbir çərçivəsində Heydər Əliyevin həyat və siyasi fəaliyyətinə həsr edilmiş fotosərgi də nümayiş olunub.







# "Ulu öndər mənə "qızım" deyərdi..."

### İlk Prezident təqaüdçüləri

Ofeliya Sənani. Bu adı eşidəndə insanların siması işıqlanır, üzünə təbəssüm qonur. Onu hələ kiçik yaşlarımızdan Azərbaycan Televiziyasında aparıcısı olduğu uşaq verilişlərindən sevmişik. İncə davranışı, məlahətli nitqi, efirdən evlərə ötürdüyü müsbət enerji ilə...

Görkəmli diktor, Xalq artisti Ofeliya Sənani ilə ad günü ərəfəsində görüşdük. 26 may günü dünyaya gələn aktrisanı təbrik etdik, "İlk Prezident təqaüdçüləri" rubrikamız üzrə Ulu öndərlə bağlı xatirələrini dinlədik.

Ofeliya xanım ötən illərə kövrək duyğularla səyahət edir. Hər cümləsində bir nisgil, səsində titrəyiş hiss edirik. Böyük sevgi ilə danışır Ulu öndər haqqında. Ən xoş, ülvi xatirələrin işığında yaşadığı unudulmaz illəri yada salır: "Ulu öndər televiziyanı və bizi çox sevərdi. Əsas bayramlarda gələrdi, xalqımıza təbriklərini çatdırardı. 1 iyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günündə Teleteatra yığışardıq. Məktəblilər də o tədbirdə iştirak edərdi, bütün oturacaqlar dolu, hamının əhvalı gözəl olardı. Gəlməzdən əvvəl həmişə deyərdi ki, mənə üç yer saxlayın, qızlarım da yanımda əyləşsin. Qızlarım deyəndə məni və Roza Tağıyevanı nəzərdə tuturdu. Bizi həmişə yanında əyləşdirərdi. Məktəbliləri təbrik edib bizimlə söhbətə başlayardı.

Bir dəfə dönüb dedi niyə əyləşmisiniz, durun bir rəqs edək, oynaya bilmirsiz? Birinci Roza qalxdı. Yer darısqal idi, uşaqlar, səhnə və s. Qalxdı, Roza ilə başladılar rəqsə. Bir də baxdı mən yoxam, sən niyə oturmusan, yoxsa bizimlə rəqs etmək istəmirsən? Dedim cənab Prezident, sadəcə, yer darısqaldır, maneə olmaq istəmədim. Dur gəl, sənə də yer tapılar. Gəlib qarşımda dayandı. Həmin kadrlar tez-tez nümayiş olunur. Rəqs edəndən sonra məndən rəqs müəllimimin kim olduğunu soruşdu. Dedim özüm öyrənmişəm. Yəni bizimlə hər zaman ata-bala söhbəti edərdi. Elə qayğımıza qalar, elə mehribanlıq göstərərdi ki. Bildirirdi ki, bir probleminiz oldu, mənə deyin. Hətta deyirdi utanmayın, nə sözünüz olsa, Prezident Aparatına gəlin. Bəzən zarafat edir, bizləri güldürürdü. Mənə deyirdi sən bütün gün ekrandasan, evdə yemək bişirmirsən? Nə vaxt televiziyaya iclasa gəlsəydi, mütləq soruşardı mənim qızlarım hanı, çağırın onları gəlsinlər.



Bir dəfə iş yerində görüşdüm onunla. Məni mehribanlıqla qarşılayıb problemlərimi xəbər aldı. Biz İçərişəhərdə yaşayırdıq. Validin (ömür-gün yoldaşı, görkəmli diktor Valid Sənani – red.) evinin şəraiti yox idi. Onda qızımın 5 yaşı var idi. Çarpayı qoymağa yerimiz yox idi, uşağı stolun üzərində yatırdırdım. Ulu öndər bundan xəbər tutanda bizə gözəl bir mənzil hədiyyə etdi. Məşhur "Cücələrim" kafesinin üstündə yerləşən evin pəncərəsi bulvara açılırdı. O evdə çox gözəl günlərimi yaşamışam...".

Ofeliya xanım həmin mənzili sonradan dəyişməyini ürək yanğısı ilə xatırlayır. Deyir 1990-cı illərin ağrılı günləri, 20 Yanvar hadisələri və sonrakı illərin ağrı-acısı həmin evdən çıxmasına səbəb olub.

Deyir hər dəfə Heydər Əliyevin məzarını ziyarət edəndə göz yaşlarımı saxlaya bilmirəm: "O, böyük insan idi. Əməyi qiymətləndirən, hər sahəyə diqqətlə yanaşan insan idi. Fəxri ad da, təqaüd də verib. Validə də "Əməkdar jurnalist" adı vermişdi".

Müsahibim "Xalq artisti" fəxri adını alanda Ümummilli liderlə görüşünü də xoş duyğularla yada salır. "Fəxri ad üçün siyahı Heydər Əliyevə təqdim olunanda mənim adımın orada olmadığını görüb əlavə etdirmişdi. Prezident təqaüdü veriləndə də eyni hal yaşanmışdı. Nə yaxşı ki, Azərbaycan xalqının belə bir şəxsiyyəti varmış. Hərdən həmin vaxtlara qayıtmaq istəyirəm. Hətta səhhətimdə problem yarananda da mənə dəstək oldu. Beynimə qan sızdı, xəstəxanada yatmalı oldum. Müalicəmin nəzarətdə saxlanılması ilə bağlı tapşırıq vermişdi. Həmin dövrdə "Gəl, səhərim" verilişini aparırdım. Sən demə, verilişi izləyirmiş. Məni görmədiyi üçün zəng vurub xəbər alanda xəstələnməyimi demişdilər...".

Qeyd edək ki, Ofeliya Sənani Azərbaycan Dövlət Universitetini (indiki BDU) bitirib. Məşhur diktor Gültəkin Cabbarlının yetirməsidir. 1959-1975-ci illərdə radioda işləyib, bir sıra radio tamaşalarında baş rollarda çıxış edib. 1975-ci ildən bu yaxınlaradək Azərbaycan Televiziyasında diktor işləyib. 1960-1990-cı illərdə eyni zamanda "Azərbaycanfilm" kinostudiyasının Dublyaj şöbəsində işləyib, 100-dən artıq filmin baş qəhrəmanını səsləndirib. Özü də bir neçə kinofilmdə çəkilib.

**Lalə Azəri**

# Rus Dram Teatrının kollektivi Şəkiyə qastrola gedəcək

Ümummilli lider Heydər Əliyevin 100, Azərbaycan peşəkar milli teatrının yaranmasının 150 illiyinə həsr edilmiş silsilə tədbirlər çərçivəsində regionlara təşkil olunan qastrol səfərlərinə Azərbaycan Dövlət Akademik Rus Dram Teatrı da qoşulub. Yaradıcı kollektiv Şəki Dövlət Dram Teatrının qonağı olacaq.

Rus Dram Teatrı mayın 29-da şəkili teatrsevərlərə "Mən, sən, o və telefon", mayın 30-da isə "Sehrli karusel" tamaşalarını nümayiş etdirəcək.

# Rəsm müsabiqəsinin yekun sərgisi açılacaq

VI "Azərbaycanım" Respublika Uşaq Rəsm Festivalı çərçivəsində elan olunan müsabiqənin yekun sərgisi mayın 27-də açılacaq.

Xatırladaq ki, müsabiqə Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi, "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC, Xətai Rayon İcra Hakimiyyəti, Rəssamlar İttifaqı, Azərbaycan Dövlət Rəsm Qalereyası və Xətai Sənət Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilib.

"Heydər Əliyev İli"nə həsr olunmuş müsabiqəyə şəhər və rayonların 500-dən çox məktəb və ya yaradıcılıq müəssisindən 2500-ə qədər uşaq, yeniyetmə və gənc əl işlərini təqdim edib. Onlardan müvafiq yaş qrupları üzrə ümumilikdə 800-ü sərgilənmək üçün seçilib. Sərgi Xətai Rayon İcra Hakimiyyətinin binası qarşısında təşkil ediləcək.

# "El bilir ki, sən mənimsən..."

## Dövlət Uşaq Filarmoniyası Horadizdə konsert verib

"Heydər Əliyev İli" çərçivəsində paytaxtdakı teatr-konsert müəssisələrinin bölgələrə qastrol səfərləri davam edir.



Mayın 23-də Azərbaycan Dövlət Uşaq Filarmoniyası (ADUF) Füzuli rayonunun Horadiz şəhərində konsert proqramı ilə çıxış edib.

Filarmoniyanın "Heydər Əliyev İli" çərçivəsində "El bilir ki, sən mənimsən..." adlı sayca dördüncü konserti Horadiz şəhərindəki Muğam Mərkəzində gerçəkləşib.



Tədbirdə rayon İcra Hakimiyyətinin nümayəndələri, Kürdəmir Regional Mədəniyyət İdarəsinin (RMİ) rəisi Faiq Xudanlı, rayon Təhsil sektorunun müdiri Ramella Məmmədova, ADUF-nin direktoru Əməkdar incəsənət xadimi Dilarə Əliyeva, musiqi və ümumtəhsil məktəblərinin direktorları iştirak ediblər.

Dövlət Uşaq Filarmoniyası kollektivinin bir-birindən maraqlı çıxışları tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb.

Konsertin sonunda Kürdəmir RMİ-nin rəisi F.Xudanlı filarmoniyanın rəhbərliyinə və kollektivinə minnətdarlığını bildirib.

Filarmoniyanın kollektivi rayon Heydər Əliyev Mərkəzinə ekskursiya edib, Tarix-Diyarşünaslıq Muzeyi ilə tanış olub.

### "Heydər Əliyev İli"

# Mədəniyyətimizin böyük hamisi



Ümummilli lider Heydər Əliyev böyük siyasətdə olduğu bir qərinədən artıq dövrdə, doğma xalqının taleyində tarixi rol oynamaqla bərabər, mədəni irsimizin qorunması və zənginləşdirilməsi, milli incəsənətin, ədəbiyyatın inkişafı, respublikada mədəni-maarif işinin qabaqcıl səviyyədə təşkili sahəsində də müstəsna xidmətlər göstərib.

Heydər Əliyevin mədəniyyətə diqqət və qayğısı onun dövlət xadimi kimi fəaliyyətinin bütün mərhələlərində – sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə, Moskvada, SSRİ rəhbərliyində çalışdığı vaxtda və müstəqil Azərbaycana onillik prezidentliyi dövründə tarixin yaddaşına çoxsaylı səhifələrlə yazılıb. O, hər zaman və hər yerdə Azərbaycan mədəniyyətinin böyük hamisi olub. Bununla bağlı illərin xronikasından seçdiyimiz məqamları "Heydər Əliyev İli"nə töhfə olaraq diqqətinizə təqdim edirik...

## İllərin xronikasından (36)

### 1982-ci il 3 dekabr

Azərbaycan KP MK-nın plenumunda təşkilati məsələyə baxılıb. Heydər Əliyev Sov. İKP MK Siyasi Bürosunun üzvü seçilməsi və SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini təyin edilməsi ilə əlaqədar Azərbaycan KP MK-nın Birinci katibi vəzifəsindən azad edilib. Plenumda nitq söyləyən Heydər Əliyev Azərbaycanda mədəniyyət sahəsində əldə edilən nailiyyətlər və qarşıda duran vəzifələrdən də danışıb.

*"...Azərbaycan KP MK yaradıcılıq ittifaqlarının və müəssisələrinin fəaliyyətinin təkmilləşdirilməsinə, bədii yaradıcılıq üçün mədəniyyət ustalarına əlverişli şərait yaradılmasına, onların əməyinin mənəvi stimullaşdırılmasına daim qayğı göstərir. Respublikanın əsaslı surətdə yüksəldiyi dövrdə Azərbaycan mədəniyyətində də böyük müvəffəqiyyətlər qazanılmışdır. Yazıçılar, şairlər, bəstəkarlar, rəssamlar, heykəltəraşlar, teatr və kino xadimləri, incəsənətin bütün janrlarının nümayəndələri respublikanın şanlı nailiyyətlərinə layiqincə kömək göstərmiş, bir çox mühüm əsərlər yaratmış, xalqımızın mənəvi xəzinəsini yeni nailiyyətlərlə zənginləşdirmişlər.*

*Bədii mədəniyyətin daha da inkişaf etdirilməsi, kütlələrin estetik tərbiyəsi vəzifələri incəsənət ustalarının yaradıcılıq səylərini bundan sonra da hər vasitə ilə gücləndirməyi, bədii mədəniyyətimizi inkişaf etdirməyi və təkmilləşdirməyi tələb edir. Yazıçılar, bəstəkarlar, rəssamlar, kinematoqrafçılar, arxitektorlar ittifaqları, teatr və xor cəmiyyətləri bu işdə mühüm rol oynamalı, yaradıcılıq problemlərinin həllinə öz xidmətini artırmalıdırlar...".*

### 1982-ci il 6 dekabr

Heydər Əliyev Moskvaya yola düşüb. Bundan sonra onun həyat və fəaliyyətinin səkkiz ili bu şəhərdə keçib.

***

SSRİ rəhbərliyində yüksək vəzifələrin icrasına başlamazdan öncə Heydər Əliyev respublikanın rəhbəri kimi Azərbaycanın mədəniyyətinə diqqət-qayğısını bir daha nümayiş etdirdi. Onun təşəbbüsü ilə bu sahədə çalışanların böyük bir qrupuna yaradıcılıq nailiyyətlərinə görə fəxri adlar verildi.

### 1982-ci il 1 dekabr

Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə bir sıra teatrların aparıcı səhnə ustalarına fəxri adlar verilib:

"Xalq artisti" – Süleyman Ələsgərov (Gənc Tamaşaçılar Teatrı); Nodar Şaşıqoğlu, Murad Yagizarov (hər ikisi – Dövlət Rus Dram Teatrı); Zemfira Əliyeva, Sofiya Hüseynova (hər ikisi – Naxçıvan Musiqili Dram Teatrı).

"Əməkdar artist" – Azərbaycan Dövlət Akademik Dram, Dövlət Gənc Tamaşaçılar, Dövlət Rus Dram, Azərbaycan Dövlət Kukla, Lənkəran Dövlət Dram, Şəki Dövlət Dram, Ağdam Dövlət Dram, Sumqayıt Dövlət Dram, Mingəçevir Dövlət Dram, Kirovabad (Gəncə – red.) Dövlət Dram teatrlarının ümumilikdə 13 artisti.

Həmçinin respublika Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə Azərbaycan Dövlət Musiqili Komediya Teatrından Səyavuş Aslan "Xalq artisti", daha 6 nəfər "Əməkdar artist" fəxri adlarına layiq görülüb.

***

Ali Sovetin Rəyasət Heyətinin fərmanı ilə respublikanın kino sənəti xadimlərinə fəxri adlar verilib:

"Xalq artisti" – Həsən (Əbdülhəsən) Məmmədov, Şəfiqə Məmmədova, Rasim Balayev (aktyorlar); Rasim Ocaqov, Eldar Quliyev (kinorejissorlar); Cavanşir Məmmədov (kinooperator).

"Əməkdar incəsənət xadimi" – Zaur Məhərrəmov (kinooperator); Yalçın Əfəndiyev (kinorejissor).

"Əməkdar artist" – Əminə Yusifqardaş qızı; Muxtar Maniyev (aktyorlar).

***

Ali Sovetin Rəyasət Heyətinin fərmanı ilə təsviri sənətin inkişafında xidmətlərinə görə bir qrup rəssam və heykəltəraşa fəxri adlar verilib:

"Xalq rəssamı" – Baba Əliyev, Kamil Əliyev, Hüseyn Əliyev, Mirələsgər Mirqasımov, Vidadi Nərimanbəyov, Salam Salamzadə, Tağı Tağıyev, Ömər Eldarov.

"Əməkdar rəssam" – 21 nəfər.

***

Ali Sovetin Rəyasət Heyətinin fərmanı ilə musiqi sənətinin inkişafında fəxri ada layiq görülən bəstəkarlar:

"Əməkdar incəsənət xadimi" – Əfsər Cavanşirov, Boris Yermolayev, Məmməd Quliyev, Musa Mirzəyev, Ramiz Mirişli.

### 1982-ci il 2 dekabr

Ali Sovetin Rəyasət Heyətinin fərmanı ilə respublikada elmin inkişafında və bu sahədə kadrların hazırlanmasında xidmətlərinə görə bir qrup alimə "Əməkdar elm xadimi" fəxri adı verilib: o cümlədən Midhət Ağamirov (filosof); Püstə Əzizbəyova, Sara Aşurbəyli, Ziya Bünyadov, Cəmil Quliyev (tarixçilər); Məmmədcəfər Cəfərov, Cahangir Qəhrəmanov (filoloqlar); Əbdülvahab Salamzadə (sənətşünas).

### 1982-ci il 3 dekabr

Respublika Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə Azərbaycan teatr sənətinin inkişafında xidmətlərinə görə və M.Qorki adına Stepanakert (Xankəndi – red.) Dövlət Dram Teatrının 50 illiyi ilə əlaqədar olaraq teatrın bir qrup əməkdaşına "Xalq artisti", "Əməkdar incəsənət xadimi", "Əməkdar artist" və "Əməkdar mədəniyyət işçisi" fəxri adları verilib. Həmçinin teatrın bir qrup əməkdaşı Ali Sovetin Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif edilib.

### 1982-ci il 9 dekabr

Musiqi ifaçılığı sənətinin inkişafında xidmətlərinə və Azərbaycan SSR Dövlət Televiziya və Radio Verilişləri Komitəsi Xalq çalğı alətləri orkestrinin 50 illiyi ilə əlaqədar olaraq orkestrin vokalçı-solisti Gülağa Məmmədov "Xalq artisti", orkestrin daha beş üzvü "Əməkdar artist" fəxri adlarına layiq görülüb. Bundan əlavə, orkestrin bas dirijoru Nəriman Əzimov, bir qrup solist və üzvü Ali Sovetin Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif ediliblər.

**Hazırladı: V.Orxan**

***(davamı var)***

# Ulu öndər və ozan-aşıq sənəti

Ulu öndər Heydər Əliyev hər zaman mədəniyyəti ölkənin ümumi inkişafının vacib hissəsi hesab edirdi. Buna görə də mədəniyyət sahəsi üzrə həm qanunvericilik bazasının hazırlanması, həm də praktik yaradıcılıq fəaliyyətinin təbliğ və təşviqini diqqətdə saxlayırdı. Bu yazıda Ümummilli liderin həm sovet Azərbaycanına rəhbərliyi (1969-1982) dövründə, həm də müstəqillik dövründə aşıq sənətinə, folklorumuza diqqət və qayğısı haqqında qısa söz açmaq istəyirəm.

Heydər Əliyev Azərbaycana rəhbərliyinin ilk vaxtlarından on illərlə məqsədli şəkildə diqqətdən kənarda qalmış, aşkar sayğısızlıq göstərilmiş folklora, aşıq sənətinə yenidən fəaliyyət meydanı yaratdı. Bu şərait təkcə söz-tapşırıq olaraq qalmadı, canlı tədbirlərdən tutmuş radio-televiziya efir-ekranlarına qədər genişləndi.

O illərə qədər bu səpkidə mədəniyyət-incəsənət tədbirləri ya az olurdu, ya da diqqət çəkmirdi. Həmin dövrdə ərsəyə gətirilən "Ozan" və "Bulaq" kimi verilişlər xalqımızın böyük marağına səbəb olmuşdu. 1969-cu ilin noyabr ayında "Xalq yaradıcılığı bulağı" adı ilə efirə çıxan veriliş 1970-ci ildən "Bulaq" adlandırıldı. Xalqımızın zəngin deyim-duyum tərzi, əsrlərin o üzündən ulularımızın söz xəzinəsi evlərə "ayaq açdı".

Aşıqların yaradıcılıqlarının dərindən öyrənilməsi, bölgələrdə konsertlərinin, görüşlərinin təşkil edilməsi, bu sahənin araşdırılması, sənədli filmlərin çəkilməsi ədəbi-mədəni yaddaşımıza göstərilən diqqətin nəticəsi idi.

1970-80-ci illərdə aşıqlardan Hüseyn Bozalqanlı, Vəli Miskinli, Hüseyn Cavan, Ədalət Nəsibov, Şəmşir Qocayev, Şakir Hacıyev və digər məşhur sənətkarlar el-obada daha geniş şöhrət qazandı, bu ulu sənətin təbliğinə öz töhfələrini verməyə başladılar.

Aşıq Ələsgərin 1972-ci ildə (Bakıda və Moskvada) 150 illik, Aşıq Alının 1981-ci ildə 180 illik, Aşıq Şəmşirin 2003-cü ildə 110 illik yubileylərinin təşkili Ulu öndərin təşəbbüsü və tapşırığı ilə reallaşmışdı.

Əməkdar elm xadimi, professor, Azərbaycan Aşıqlar Birliyinin sədri Məhərrəm Qasımlı Aşıq Ələsgər irsinə dövlət qayğısından bəhs edərək yazır: "1972-ci ildə Heydər Əliyevin böyük siyasi nüfuzu sayəsində Aşıq Ələsgərin 150 illik yubiley tədbiri Bakı ilə yanaşı, Moskvada da ən yüksək səviyyədə keçirildi. Yubiley tədbirlərinin keçmiş ittifaq miqyasındakı böyük əks-sədası o vaxt hətta erməniləri də Aşıq Ələsgərin 150 illiyini qeyd etmək məcburiyyətində qoydu. Belə ki, Ermənistan SSR ərazisində olan Göyçə mahalında Aşıq Ələsgərin vətəni Ağkilsə kəndində böyük sənətkarın əzəmətli qəbirüstü abidəsi ucaldıldı. Bu, həmin dövrdə Heydər Əliyevin nüfuzu sayəsində əldə edilmiş parlaq bir nailiyyət idi".

"Yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək, həmişə yaşayacaq, həmişə inkişaf edəcəkdir", – deyən Ümummilli liderin fikrincə, mədəniyyət bəşəriyyətin topladığı ən yaxşı nümunələrlə xalqları zənginləşdirir.

Heydər Əliyevin bu sahəyə qayğısı nəticəsində Azərbaycan aşıqlarının təşkilatlanması istiqamətində də mühüm addımlar atılıb. Azərbaycan Aşıqlar Birliyi (1982), qadın aşıq və şairlərdən ibarət "Aşıq Pəri" məclisi (1984) yaradılıb, "Bayatı bayramı", "Dastan gecəsi", "Qurbani saz bayramı" və s. layihələr həyata keçirilib. Həmin dövrdə Azərbaycan Aşıqlar Birliyinin əsasını qoymuş və ilk sədri olmuş Xalq şairi Hüseyn Arifə respublikanın Dövlət mükafatı verilib.

Xalqın zəngin mənəvi dünyasının öyrənilməsi məsələsi Heydər Əliyevin elm və mədəniyyət quruculuğu siyasətinin tərkib hissəsi kimi daim diqqət mərkəzində olub.

Milli dövlət quruculuğunun ilk illərində, 1994-cü ilin martında görkəmli tənqidçi, ədəbiyyatşünas Yaşar Qarayevin ideya müəllifliyi və təşəbbüsü ilə AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun nəzdində "Folklor Sarayı" Elmi-Mədəni Mərkəzinin fəaliyyətə başlaması və daha sonra onun bazasında Folklor İnstitutunun təşkili dövlət siyasəti səviyyəsində milli-mənəvi dəyərlərə artan marağın təzahürü, milli-ideoloji işin elmi meyarlarla kompleksləşdirilməsinin göstəricisi idi.

Heydər Əliyev "Koroğlu" dastanı haqqında söyləmişdi: "Koroğlu" dastanı ona görə sevilibdir ki, xalqın həyatı, gələcəyi üçün ən əhəmiyyətli fikirlər o dastanda cəm olubdur. Bu dastanı nəinki xalqımıza, bütün dünya ictimaiyyətinə daha da təsirli şəkildə çatdırmaq, tanıtdırmaq üçün Üzeyir Hacıbəyovun "Koroğlu" operasını yaratması mədəniyyətimizdə böyük inqilabi hadisədir".



Ulu öndər "Kitabi-Dədə Qorqud" dastanına münasibətdə də mədəniyyətimizin, folklorumuzun gerçək himayədarı olduğunu ortaya qoyub. Təkcə Azərbaycanda və türk respublikaları arasında deyil, dünyada belə heyrətlə qarşılanan "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyinin UNESCO səviyyəsində təntənəli şəkildə keçirilməsi də Heydər Əliyevin adı ilə bağlıdır. Dahi siyasətçi "Kitabi-Dədə Qorqud" dastanını yüksək qiymətləndirərək demişdi: "Dədə Qorqud"un kinoya salınması tariximiz üçün nə qədər böyük hadisədir! Nə üçün? Çünki, gəlin, açıq danışaq, elə özümüzün içərisində də çoxları "Dədə Qorqud"u yaxşı bilmirlər, "Dədə Qorqud"un, Azərbaycan xalqının kökünü yaxşı bilmirlər...".

Yeri gəlmişkən, onu da qeyd edim ki, respublikada yeganə olan Gədəbəy Aşıq Məktəbi də Ulu öndərin milli dəyərlərə yönəlmiş siyasətinin təzahürüdür. Təhsil ocağında Dədə Qorqud yadigarı ozan sənətinin gələcək nəsillərə çatdırılması istiqamətində iş aparılır. Azərbaycan aşıq sənətinin 2009-cu ildə UNESCO-nun "Bəşəriyyətin qeyri-maddi mədəni irsinin Reprezentativ Siyahısı"na daxil edilməsi də bu sahəyə dövlət qayğısının bariz nümunəsidir.

Dövlətimizin diqqət və qayğısı altında bu gün xalq yaradıcılığının müxtəlif istiqamətləri üzrə toplama, tərtib və nəşr layihələri reallaşdırılır. Mədəniyyət Nazirliyi tərəfindən də aşıq sənətinin yaşadılmasına və təbliğinə qayğı ilə yanaşılır, keçirilən festival və müsabiqələrdə, konsertlərdə aşıq sənətinə də diqqət yetirilir.

**Etibar Əliyev**
**Gədəbəy Aşıq Məktəbinin direktoru**



# Yunanıstan Ali Məhkəməsi Eldar Mansurovun müəlliflik hüququna dair qərar verib

## "Bayatılar"ın musiqisi ilə bağlı məhkəmə çəkişməsi 11 il sürüb...

Yunanıstan Ali Məhkəməsi 11 il sürən məhkəmə işinə nöqtə qoyub və "Esena Mono" mahnısının musiqisinin Eldar Mansurovun "Bayatılar"ından götürüldüyü barədə yekun qərar verib. Bununla da Yunanıstanın son məhkəmə instansiyası Azərbaycan bəstəkarının müəlliflik hüquqlarının pozulmasını tanıyıb.

Xalq artisti Eldar Mansurov "Bayatılar" mahnısını 1988-ci ildə bəstələyib. "Bayatılar" ilk dəfə 1989-cu ildə Xalq artisti Brilliant Dadaşovanın ifasında audiovizual formatda lentə alınıb və həmin lent yazısı Azərbaycan Televiziyasının efirində yayımlanıb. 1990-cı ildə müğənninin ifasında "Bayatılar" "Melodiya" şirkəti tərəfindən vala yazılaraq, geniş tirajla yayılıb.

2008-ci ildə Eldar Mansurov musiqisi yunan bəstəkara aid olduğu iddia edilən və "Bayatılar"ın musiqisini təkrarlayan "Esena Mono" mahnısı barədə məlumat əldə edib. O, "Esena Mono"nun musiqisinin "Bayatılar"dan götürüldüyünü və özünün müəlliflik hüquqlarının pozulduğunu "Esena Mono"nun müəllifi kimi qeyd edilən yunan bəstəkar Dimitris Kontopulosa və əsərin yayımını həyata keçirən "Sony Music Entertainment Hellas AE" şirkətinə məhkəməyəqədər iddia qaydasında bildirib və onlardan "Bayatılar"dan qanunsuz istifadəni dayandırmağı tələb edib. Qarşı tərəf buna rədd cavabı verib.

2011-ci ildə Eldar Mansurov öz hüquqlarını müdafiə etmək məqsədilə Afina Çoxtərkibli Birinci İnstansiya Məhkəməsinə cavabdehlər Dimitris Kontopulos və "Sony Music Entertainment Hellas AE" şirkətinə qarşı müəlliflik hüquqlarının pozulması ilə bağlı iddia ilə müraciət edib.

Həmin iddia ilə bağlı iş 11 il sürüb. Bu müddət ərzində işə Yunanıstanın üç məhkəmə instansiyasında baxılıb. 2018-ci ildə birinci instansiya məhkəməsi Eldar Mansurovun iddiasını təmin edərək, onun müəlliflik hüququnun pozulması faktını tanıyıb və hər iki cavabdeh tərəfindən ona vurulmuş maddi və mənəvi zərərin əvəzinin ödənilməsini qət edib. Cavabdehlər qərardan Afina Apelyasiya Məhkəməsinə şikayət verib, lakin 2020-ci ildə həmin məhkəmə də birinci instansiya məhkəməsinin qərarını qüvvədə saxlayıb.

Bundan sonra "Sony Music Entertainment Hellas AE" şirkəti apelyasiya məhkəməsinin qərarını tanıyıb və icra edib, Dimitris Kontopulos isə Yunanıstan Ali Məhkəməsinə kasasiya şikayəti verib. Nəhayət, Yunanıstan Ali Məhkəməsi də 2022-ci ildə məhkəmə baxışı zamanı şifahi qaydada bəyan etdiyi və 2023-cü ildə tərəflərə yazılı şəkildə təqdim etdiyi qərarı ilə birinci instansiya məhkəməsinin qərarını qüvvədə saxlayıb və cavabdeh Kontopulosun şikayətini tamamilə rədd edib.

Ali Məhkəmənin qərarında bildirilir ki, "Esena Mono"nun musiqisi "Bayatılar"ın orijinal melodik məzmununu cüzi dəyişdirilməklə ərsəyə gəlib və orijinal musiqi ilə oxşarlıq 50 faizdən çox təşkil edir. "Esena Mono" əsəri Mansurovun "Bayatılar"ının musiqisi üzərində olan müstəsna və özgəninkiləşdirilməz şəxsi müəlliflik hüquqlarını pozub, habelə "Esena Mono"nun Mansurovun razılığı olmadan yayılması bəstəkarın müstəsna hüquqlarını pozmaqla yanaşı, onu öz əqli mülkiyyəti ilə bağlı iqtisadi hüquqlarını həyata keçirmək imkanından da məhrum edib.

Bu səbəbdən Yunanıstan Ali Məhkəməsi Kontopulosun bundan sonra "Esena Mono" adlı musiqi əsərinin və ya "Bayatılar"ın musiqisinin hər hansı bir hissəsindən yaxud onun dəyişdirilməsindən ibarət hər hansı digər əsərin bəstəkarı kimi çıxış etməyi qadağan edib.

Qeyd edək ki, mübahisə ilə bağlı Eldar Mansurovun maraqlarını Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü Nazlı Əhmədova, Yunanıstanın "HP&P Dr. Helen G.Papaconstantinou & Partners" hüquq firması (vəkillər Kardiopulis, Qusios və Kurkutas) və professor Maykl Parossis təmsil ediblər.

# Azər Buzovnalının "Oğuznamə" əsəri nəşr edilib

XX əsr Azərbaycan poeziyasının tanınmış nümayəndələrindən şair, tərcüməçi Azər Buzovnalının (Məşədi Azər Hacı Məcid oğlu İmaməliyev; 1870-1951) "Oğuznamə" kitabı çapdan çıxıb.

Azərbaycan Aşıqlar Birliyinin (AAB) xətti ilə nəşrə hazırlanan kitabda müəllifin 1925-ci ildə tarixi mövzuda yazdığı, soy-kökümüzdən, milli keçmişimizdən, Dədə Qorqud və ozan-aşıq mədəniyyətinin yaranış tarixindən bəhs edən "Oğuznamə" əsəri yer alıb.

Ərəb qrafikalı Azərbaycan əlifbasında (əski əlifba) əlyazma halında olan əsər müasir əlifbamıza transfoneliterasiya edilərək təqdim edilir. Kitab tarixçilər, filoloqlar, folklorçu-etnoqraflar və geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

Kitabı transfonoliterasiya edərək nəşrə hazırlayan filologiya üzrə fəlsəfə doktoru Könül Sabir, məsləhətçisi, elmi redaktoru və ön sözün müəllifi AAB-nin sədri Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlı, rəyçisi filologiya elmləri doktoru Nailə Səmədovadır.

# Memarlıq abidələri rəsmlərdə – kataloq çap olunub

Milli Azərbaycan Tarixi Muzeyinin Təsviri materiallar fondunun kolleksiyası əsasında "Azərbaycan memarlıq abidələri rəsm əsərlərində" adlı kataloq çap olunub.

Nəşrin müəllifi, muzeyin Təsviri materiallar fondunun müdiri, memarlıq üzrə fəlsəfə doktoru Nardanə Yusifova bildirib ki, kataloqda Azərbaycan və rus rəssamlarının Azərbaycanın maddi mədəniyyət nümunələrini, daş yaddaşı olan memarlıq abidələrini əks etdirən ümumilikdə 37 əsəri yer alıb. Nəşrdə bu mövzu ilə əlaqəli bir sıra digər əsərlərin siyahısı da verilib.

Kataloqun hazırlanmasında məqsəd Azərbaycan memarlığının şah əsərlərini təsviri sənət ustalarının əl işlərində bir daha diqqətə çatdırmaq, qədim mədəni irsimizi bir daha tanıtmaqdır. Hazırda azad edilmiş torpaqlarımızda aparılan quruculuq işlərində bu əsərlərdən informasiya daşıyıcısı, fakt kimi istifadə etməklə həmin abidələri bərpa etmək mümkündür.

Nəşrin elmi redaktoru muzeyin direktoru akademik Nailə Vəlixanlıdır.

# "Süleyman Ələsgərov konservatoriyada qalıb işləməyimi istəyirdi..."

## "Mədəniyyətə könül verənlər"

Bir ölkənin mədəniyyəti onun paytaxt və böyük şəhərləri ilə məhdudlaşmır. Mərkəzdən uzaqda, ucqarlarda da mədəni-mənəvi dəyərlər yaşadılır, inkişaf etdirilir.

Bölgələrdə yaşayıb fəaliyyət göstərən, mədəniyyətin inkişafına töhfələr verən bir çox insanın xidmətləri geniş ictimaiyyətin diqqətindən kənarda qalır. "Mədəniyyətə könül verənlər" rubrikasında ömrünü sənətə həsr edən, özünü bu sahədə tapanları oxucularımıza tanıdacağıq. Rubrikanın ilk qonağı lənkəranlı kamança ifaçısı İlqar Əliyevdir.

İlqar Təriş oğlu Əliyev 1964-cü il avqustun 13-də Lənkəran şəhərində anadan olub. İlk təhsilini şəhər 2 saylı tam orta məktəbdə alıb. Eyni zamanda C.Cabbarlı adına Musiqi məktəbini kamança sinfi üzrə bitirib. Musiqi məktəbində təhsil aldığı müddətdə xalq çalğı alətləri üzrə respublika müsabiqəsində qalib olub. 1979-cu ildə Lənkəran Musiqi Texnikumunun Xalq çalğı alətləri şöbəsini kamança ixtisası üzrə başa vurub. Daha sonra təhsilini Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasında (indiki Bakı Musiqi Akademiyası) davam etdirib. Məzun olduqdan sonra Lənkəran Musiqi Texnikumunda ixtisası üzrə pedaqoji fəaliyyətə başlayıb.

İlqar Əliyev hazırda Lənkəran Dövlət Universiteti nəzdində Sosial və Aqrar-Texnoloji Kollecin Sosial şöbəsində instrumental ifaçılıq və vokal sənəti fənn birləşməsinin rəhbəri kimi pedaqoji fəaliyyətini davam etdirir.

Kamançaçı bildirir ki, musiqi sənətinə yiyələnməsində atasının əməyi olub: "Tarzən olan atam uzun illər mədəniyyət sahəsində çalışıb. İşdən gələndən sonra tarda gözəl musiqilər ifa edərdi. Mən də böyük həvəslə atamı dinləyərdim. Atam ifasını bitirdikdən sonra tarı divardan asardı. Bir gün o, işdə olanda aləti götürüb pərdələrində barmaqlarımı gəzdirdim. Mizrab vuraraq səslərini tapmağa çalışdım. Atam tarla maraqlandığımı görüb dedi ki, əgər tara həvəsin varsa, səni musiqi məktəbinə aparım. Qəbul olarsan və tar üzrə təhsil alarsan. Amma mənim fikrim başqa idi. Uşaqlığımdan daima ustad kamança ifaçısı, Xalq artisti Habil Əliyevin çalğısına qulaq asırdım. Məhz Habil Əliyevin ifaları məndə kamança alətinə həvəs oyatdı. Beləliklə, bu həvəs sayəsində musiqiçi olmaq qərarına gəldim".



Həmsöhbətim deyir ki, təhsil aldıqdan sonra müntəzəm olaraq tədbirlərdə, konsertlərdə solo ifalarla tamaşaçıların qarşısında çıxış, muğam üçlüyündə tanınmış xanəndələri müşayiət edib. Bundan başqa, televiziya verilişlərində, həmçinin Rusiyada və İranda konsert proqramları ilə çıxışları olub.

İlqar müəllim Azərbaycan Dövlət Konservatoriyasını bitirən zaman görkəmli bəstəkar, Xalq artisti Süleyman Ələsgərovla bağlı xatirələrini danışır: "Konservatoriyanı bitirəndə Xalq çalğı alətləri kafedrasının müdiri professor Süleyman Ələsgərov məni yanına çağırıb dedi ki, Dövlət İmtahan Komissiyasının sədri səni Daşkənd Konservatoriyasında işləməyə dəvət edir. Mən isə evin böyük övladı olduğum üçün, ailəmi köməksiz qoymamaqdan ötrü bu təklifdən imtina etdim. S.Ələsgərov dedi ki, getmirsənsə, qal öz konservatoriyamızda işlə. Mən yenə də Lənkərana qayıtmalı olduğumu bildirdim. Bu söhbətdən bir il sonra S.Ələsgərov işlədiyim Lənkəran Musiqi Texnikumuna gəlmişdi. Mənimlə də görüşdü. Yaradıcılığı haqqında olan kitabı mənə bağışladı. Əlbəttə ki, çox istəyərdim həmin illərə qayıdım və mənə edilən təkliflə razılaşım. Amma bu artıq mümkün deyil...".

Həmsöhbətim kamança alətinə qəlbən bağlı olduğunu, onunla nəfəs aldığını bildirir. Deyir ki, hazırda tələbələrimə bu sənətin sirlərini böyük həvəslə öyrədirəm.

Biz də kamança ifaçısına sənət yolunda və pedaqoji fəaliyyətində uğurlar arzulayırıq.

**Nurəddin**

# Ənənə və varislik

## Üzeyir Hacıbəyli, Qara Qarayev, Firəngiz Əlizadə...

Hər hansı bir bəstəkarlıq məktəbindən danışarkən mütləq o məktəbin ənənə və varisliyini izləmək lazımdır. Bu baxımdan yazını Azərbaycan professional musiqisinin banisi Üzeyir Hacıbəylidən başlamaq istərdim. Çünki Azərbaycan bəstəkarlıq məktəbi onun yaratdığı, yetişdirdiyi və həyata vəsiqə verdiyi istedadlı gənclərdən ibarət olub, bu gün də bu məktəb Ü.Hacıbəyli ənənələrini davam etdirir. Ü.Hacıbəyli yaradıcılığından danışarkən hər zaman "ilk" sözünü işlədirik. İlk opera, ilk operetta, ilk xor kollektivi, ilk professional bəstəkarlıq məktəbi və bu məktəbin ilk nümayəndələri olmuş Ağabacı Rzayeva, Hökumə Nəcəfova, Qara Qarayev, Cövdət Hacıyev və başqaları.

Ü.Hacıbəylinin uzaqgörənliyi ondan ibarət idi ki, o, gənclərin tam professional təhsili üçün onların yollarını açmış, Q.Qarayev və C.Hacıyevi təhsillərini davam etdirmək üçün Moskva Konservatoriyasına Dmitri Şostakoviçin sinfinə göndərmişdir. Lakin ondan öncə öz tələbələrinə həmişə Azərbaycan folkloruna, muğamına, xalq musiqisinə sadiq qalmağı tövsiyə etmişdir. Hətta sevimli tələbəsi olan A.Rzayevaya verdiyi tövsiyəsi də "sən xalqın dilində yaz, onda xalq da səni sevər" sözləri olmuşdur.

Q.Qarayev də öz ustadının yolundan gedərkən 1969-cu il "Sovetskaya kultura" jurnalının 29 yanvar nömrəsində yazırdı: "Deyirlər ki, folklor bitməyən, tükənməyən bir bulaqdır, nə qədər bu bulaqdan istifadə etsən, ardı gələr. Bu, düzgün bənzətmə deyildir. Əgər bənzətməyə qalsa, mən xalq musiqisini dərin layları, süxurları olan neft yatağına bənzədərdim. Hər kəs bu layların üst qatlarına baş vurub bir şeylər götürmək istəyir. Gəlin, bu zəngin xəzinənin dərin qatlarına baş vuraq. Nə qədər ki, üst qatlardan asanlıqla istifadə etsək, bu ona gətirir ki, kiçik dar çərçivə olan intonasiyalar, dönmələr bir əsərdən digər əsərə keçərək təkrara, bəsitliyə yol açar...".

Böyük ustad Azərbaycan musiqisinin gələcək inkişaf yollarını müəyyənləşdirərək, öz həmkarları və tələbələrini durmadan axtarmaq, irəliyə doğru hərəkət etməyə çağırırdı. Bəstəkarın yaradıcılığında bu inkişaf yolları özünün ali zirvəsini III simfoniyada tapmışdır.

Təsadüfi deyil ki, musiqişünas alim M.Aranovski özünün "Simfonik axtarışlar" adlı fundamental tədqiqatında Q.Qarayevin III simfoniyasının əsas uğurunu elə onun milli əlaqələrinin birliyində görür.

Qeyd edək ki, seriya, serial texnikalar nə qədər düşünülmüş, ölçülüb-biçilmiş tərzdə istifadə olunsa da, variantlılığın tətbiqi üçün geniş imkanlar açır. Bu isə elə Azərbaycan muğamına, musiqi folkloruna xas variantlılıqdır. Aleatorika da öz improvizasiya imkanları ilə Azərbaycan musiqisinin təbiətinə daha çox uyğun gəlirdi.

Əlbəttə ki, Ü.Hacıbəylinin, Q.Qarayevin xələfi olan Firəngiz Əlizadə müəlliminin çağırışına biganə qala bilməzdi. Əlxüsus da müəllimi Q.Qarayev sinfindəki tələbələr arasında məhz ona inanaraq müasir yazı texnikası ilə əsər yaratmağa icazə vermişdir. Bunu biz onun Alban Bergin xatirəsinə yazdığı sonatadan bilirik.




Avanqard musiqisinin nailiyyətləri Şərq musiqisinin əsas xüsusiyyətləri ilə həmahəngdir desək, yanılmarıq. Tembr sonorluğu, metrik periodikliyin yoxluğu, məxsusi modal, qeyri-temperasiyalı səs yüksəkliyi sistemləri, materialın sərbəst improvizasiyası, formanın fasiləsizliyi və s. Avanqard musiqinin bütün bu xüsusiyyətləri, əslində, Azərbaycan ənənəvi musiqisini əsaslandırmaq üçün uğurla istifadə etməyə gözəl bir vasitə ola bilir. Bir sözlə, müasir musiqini təşkil edən bu elementlərin bir qismi milli musiqinin, folklorun dərin qatlarında əsrlər boyu qorunub saxlanılmışdır və biz bütün bu yuxarıda söylədiyimiz fikirlərin təsdiqini F.Əlizadənin əsərlərinə diqqət yetirəndə görürük.

Muğama kifayət qədər yaxşı bələd olan F.Əlizadə bu inciyə müraciət edəndə onu bəstəkarlıq texnikasının müasir növləri ilə sıx birləşdirir. Müəllimi Q.Qarayevin dediyi kimi, folklorun, muğamın dərin qatlarına baş vurub oradan nadir inciləri tapıb çıxartmağı bacarır. Bu, bəstəkarın "Muğamsayağı"sında, simli kvartetində, violonçel üçün "Habilsayağı"sında və digər əsərlərində öz bariz nümunəsini tapır.

Violonçel və fortepiano üçün "Habilsayağı" kompozisiyasının premyerasından 30 ildən artıq vaxt keçməsinə baxmayaraq, bu əsər hələ də öz konsert həyatını davam etdirməkdədir. Bəstəkarın 1993-cü ildə yazdığı "Muğamsayağı" simli kvarteti "Habilsayağıdan" 14 il sonra ərsəyə gəlib. Bu əsərləri mən dulogiya adlandırardım. Əgər "Habilsayağı"da bəstəkar ilk muğam və avanqard eksperimentlərini aparıb, violonçeli tək buraxıb, fortepiano müşayiətində dinləyiciyə çatdırırdısa, artıq "Muğamsayağı" çox maraqlı bir tərkibdə təqdim olunur. Simli kvartetə zərb aləti və lent yazısı əlavə olunmaqla ilahi muğam intonasiyaları fəlsəfi düşüncələrlə səhnəni öz ağuşuna alır. "Habilsayağı"dan fərqli olaraq, əsərdə muğam sitat şəklində bütün hissə heç bir yerdə keçmir. Amma ilahi muğam intonasiyaları müasir musiqi diliylə sintezə girərək qarşımıza unikal bir kompozisiya çıxardır. Hər iki əsəri dinləyərkən "Habilsayağı"dan "Muğamsayağı"ya F.Əlizadənin qələminin necə də kamilləşməsinin şahidi oluruq. Baxmayaraq ki, sevdiyi alət olan violonçel ansamblın tərkibindədir, onlarla bütün əsər boyu dialoqa girir, lakin sonunda o yenə də təkdir, əsərin əvvəlində gəlib, eləcə də əsəri bitirir.

Ü.Hacıbəylinin xələfi və Q.Qarayevin tələbəsi olan F.Əlizadənin yaradıcılığı, onların dediyi kimi, xalq kökünə bağlı bir yoldur.

Bu baxımdan muğam intonasiyaları bəstəkarın hər bir əsərinin qayəsini təşkil edir. Belə əsərlərdən biri də 2000-ci ildə Çikaqoda dünya premyerası olan "Dərviş" əsəridir ki, burada görkəmli muğam ustası Alim Qasımovun da iştirak etdiyi bu möhtəşəm kompozisiyaya Azərbaycanın milli alətləri ney, qanun və s. əlavə olunmuşdu. İmaməddin Nəsiminin sözləri, muğam avazı, sufi dünyası və Qərb alətləri



violonçel, violin, viola ilə qeyri-adi bir kompozisiya yaradan bəstəkar deyirdi ki, əgər "Habilsayağı" 1979-cu ildə yazılıbsa, Yo-Yo-Ma layihəsi üçün axırıncı əsər "Dərviş" 21 il aradan sonra qələmə alınıb. Birinci və axırıncı əsər arasında mən də muğamın sirlərini öyrənmək üçün öz uzun yolumu keçdim.

Maraqlıdır ki, Firəngiz xanımı xarici ölkələrdə Q.Qarayevin tələbəsi, D.Şostakoviçin xələfi kimi də təqdim edib, konsert proqramlarını bu tandem üzərində qururlar. Hələ 2011-ci ildə Fransada fəaliyyət göstərən Dmitri Şostakoviç Fondunun təşkilatçılığı ilə "Azərbaycana səyahət" devizi altında təşkil olunan konsertdə "D.Şostakoviç, Q.Qarayev və F.Əlizadə" başlıqlı proqram yer almışdı. Parisin məşhur "Adyar" konsert salonunda gerçəkləşən (23 noyabr) bu tədbirin qayəsi dahi müəllimdən istedadlı tələbəyə nəsillərin qovuşmasını, klassisizmdən müasirliyə gedən yolu göstərmək idi.

Fondun rəhbəri, məşhur bəstəkarın həyat yoldaşı İrina Şostakoviçin təşkil etdiyi konsertin proqramı da maraqlı tərtib olunmuşdu. İki hissədən ibarət olan konsertin hər hissəsindən sonra D.Şostakoviçin əsərləri ifa olunurdu. Konsertdə Q.Qarayevin "Fortepiano və violin üçün sonata"sı, F.Əlizadənin "Music for piano", "Habilsayağı" və "Crossinq-II" əsərləri ifa olunmuşdu.

İngiltərənin məşhur "Laghthouse, Poole" konsert səhnəsində "Şərqin səsləri" adlı proqram yenə də – Şostakoviç, Qarayev, Əlizadə – üç görkəmli bəstəkarın əsərlərinə həsr olunmuşdu. Şostakoviçin 12-ci simfoniyasının yanında iki Azərbaycan bəstəkarı – müəllim və tələbənin Nizami yaradıcılığına həsr olunmuş əsərləri məşhur dirijor Kiril Karabisin rəhbərliyi ilə ifa olunmuşdu. Q.Qarayevin "7 gözəl" baletindən süita və gecənin dünya premyerası olan F.Əlizadənin "Nizami Cosmology" böyük müvəffəqiyyətlə qarşılanmışdı.

F.Əlizadənin bütün yaradıcılığı Ü.Hacıbəylinin yolu, müəllimi Q.Qarayevin tövsiyələri üzərində qurulub və heç kimə bənzəməyən, fərdi dəst-xətti olan yoldur. Məhz buna görə də F.Əlizadənin əsərləri müəllif möhürü olan, Azərbaycan bəstəkarlıq məktəbini bütün dünyada tanıdan və incəsənətimizin başını ucaldan əsərlərdir.

Ü.Hacıbəyli və Q.Qarayevə olan məhəbbətini göstərərək F.Əlizadə 1985-ci ildə "Qobustan" incəsənət toplusunda yazdığı məqaləsində iki dahi insanın yaradıcılığını və insani xüsusiyyətlərini geniş təhlil etmişdi. Məqalədə oxuyuruq: "Bu dahi insanların adlarını bir-birinə bağlayan xüsusiyyətlər çoxdur. Onlardan bəziləri aşkar görünür: müəllim-tələbə münasibətindəki insani xüsusiyyətlər, biri pərəstiş edilən, digəri pərəstiş edən və nəhayət, bir məqsəd uğrunda mübarizə aparan həmkarlar".

Q.Qarayev və F.Əlizadənin münasibətləri də Azərbaycan musiqisinin inkişafı naminə eyni amala, eyni məqsədə xidmət edən müəllim-tələbə münasibəti olub. Q.Qarayevi özünə mənəvi ata bilən F.Əlizadə onun yolunu davam edərək Azərbaycan musiqisini dünya üfüqlərinə, beynəlxalq aləmdə tanıtmaqla Ü.Hacıbəylinin də "Avropa musiqisi kimi Şərq musiqisi də ən qabaqcıl yerlərdən bitini tutacaq" arzusunu yerinə yetirmişdir.

Özünü hər zaman Ü.Hacıbəyli-Q.Qarayev məktəbinin nümayəndəsi hesab edən F.Əlizadənin sözləri ilə bu yazını tamamlamaq istərdim. 2007-ci ildə qəzetlərdən birinə müsahibəsində o, "Sizin bir bəstəkar kimi formalaşmağınızda Azərbaycan bəstəkarlarından kimlərin rolu olmuşdur" sualına belə cavabı vermişdi: "Bu suala cavab verərkən, təbii ki, ilk olaraq Üzeyir bəyin adını çəkmək lazımdır. Musiqisinin xarakterinə görə onu ancaq Motsartla müqayisə etmək olar... Üzeyir bəyin dahiliyi ondadır ki, janrından asılı olmayaraq onun zəif əsəri yoxdur. Üzeyir bəy kimi bir insanın olması Azərbaycan xalqının xoşbəxtliyidir. Q.Qarayev isə mənim üçün təkcə sənət müəllimi deyil, o həm də mənə mənəvi ata olub...".

**Aytac Rəhimova**
**Bakı Musiqi Akademiyasının professoru, sənətşünaslıq doktoru**

## Xatirə təqvimi 27–31 may

### Azərbaycan

**27 may 1893** – Görkəmli türkoloq, şair, professor Bəkir Vahab oğlu Çobanzadə (1893 – 13.10.1938) Krımda anadan olub. Azərbaycanda dilçilik elmi və türkologiyanın təşəkkülü və inkişafında böyük rol oynayıb. Repressiya qurbanıdır.

**27 may 1906** – Xalq artisti, teatr rejissoru Soltan Baba oğlu Dadaşov (1906-1969) Bakıda anadan olub. Opera və Balet Teatrında quruluşçu rejissor işləyib, Aşqabad teatrında M.Maqomayevin "Şah İsmayıl" operasını tamaşaya qoyub.

**27 may 1906** – Yazıçı-dramaturq Şəmsəddin Bəhlul oğlu Abbasov (1906-1975) Xızı rayonunun Sayadlar kəndində doğulub. Opera və Balet Teatrının, Bakı kinostudiyasının direktoru olub, kinossenarilər yazıb.

**27 may 1926** – Xalq şairi, nasir Söhrab Tahiri (Söhrab Əbülfəz oğlu Tahiri; 1926 – 4.5.2016) Cənubi Azərbaycanın Astara şəhərində doğulub. 1946-cı ildə sovet Azərbaycanına köçüb. Poemalar, roman və povestlər müəllifidir. Kitabları: "Vətənlə sevgi arasında", "Qonşu qızın məktubları", "Əmanət" və s.

**27 may 1956** – Xalq şairi Səməd Vurğun (Səməd Yusif oğlu Vəkilov; 21.3.1906 – 1956) vəfat edib. 20-dən çox poemanın, "Vaqif", "Fərhad və Şirin" və s. mənzum dramların, dillər əzbəri olan şeirlərin müəllifidir.

**27 may 1993** – Bakıda böyük şar-dramaturq Hüseyn Cavidin abidəsinin açılışı keçirilib. Hüseyn Cavid adına parkda ucaldılan abidənin müəllifi Xalq rəssamı, heykəltəraş Ömər Eldarovdur.

**27 may 2008** – Əməkdar incəsənət xadimi Elşad Heybət oğlu Quliyev (23.1.1941 –2008) vəfat edib. 1983-1990-cı illərdə Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin sədri işləyib.

**28 may 1927** – Xalq artisti, tanınmış kamança ifaçısı Habil Mustafa oğlu Əliyev (1927 – 8.9.2015) Ağdaş rayonunun Üçqovaq kəndində doğulub. Uzun illər Azərbaycan Dövlət Filarmoniyasının solisti olub. "Qanun naminə" filmində çəkilib, "Dəli Kür", "Sarı gəlin" filmlərində musiqiləri ifa edib.

**28 may 1936** – Əməkdar artist Aqşin Məmmədəli oğlu Vəlixanov (1936 – 21.7.1998) Bakıda anadan olub. Akademik Milli Dram Teatrında çalışıb. Kinoda, televiziya tamaşalarında çəkilib.

**28 may 2021** – Əməkdar artist, müğənni Zöhrə Abdulla qızı Abdullayeva (16.12.1952 – 2021) vəfat edib.

**29 may 1939** – Əməkdar mədəniyyət işçisi, kinooperator Həmzə Əhmədoğlu (1939-2008) Bakıda doğulub. "Azərbaycanfilm" kinostudiyasında 40-dan çox filmin çəkilişində iştirak edib.

**29 may 1946** – Aktyor, rəssam, Əməkdar incəsənət xadimi Elçin Mehdi oğlu Məmmədov (1946 – 18.2.2001) anadan olub. "Yeddi oğul istərəm", "Dədə Qorqud", "Dantenin yubileyi" və s. filmlərdə çəkilib. Ölkəmizdə, eləcə də Rusiya teatrlarında tamaşalara səhnə tərtibatı verib.

**30 may 1862** – Böyük satirik şair, maarifçi və mütəfəkkir Mirzə Ələkbər Sabir (1862 – 12.7.1911) Şamaxıda doğulub. "Molla Nəsrəddin" jurnalında fəaliyyəti şairin yaradıcılığının ən yetkin, məhsuldar dövrüdür. Ölümündən sonra (1912) şeirləri "Hophopnamə" adlı topluda nəşr olunub.

**30 may 1930** – Şair, publisist, Əməkdar mədəniyyət işçisi Fikrət Abbas oğlu Sadıq (1930 – 16.11.2016) Şamaxı şəhərində anadan olub. Uşaqlar üçün əsərlərin müəllifidir. Kitabları: "İşığın yaşı", "Ağ cığır", "Gözlədiyim ömür" və s.

**30 may 1948** – Xalq rəssamı Tahir Rəşid oğlu Tahirov (1948 – 12.9.2019) Bakıda anadan olub. Akademik Opera və Balet Teatrında quruluşçu rəssam işləyib, filmlərdə ("Cavad xan", "Sübhün səfiri" və s.) geyim rəssamı olub.

**30 may 1967** – Tanınmış aktyor, rejissor, Əməkdar incəsənət xadimi İsmayıl Mahmud oğlu Əfəndiyev (10.8.1910 – 1967) vəfat edib.

**31 may 1922** – Xalq artisti, məşhur xanəndə Sara Bəbiş qızı Qədimova (1922 – 12.5.2005) Bakıda anadan olub. Azərbaycan Dövlət Filarmoniyasının, Opera və Balet Teatrının solisti olub, Azərbaycan musiqisinin xaricdə təbliğinə böyük töhfə verib.

**31 may 1929** – Bəstəkar, Xalq artisti Oqtay Qədir oğlu Zülfüqarov (1929 – 31.8.2016) anadan olub. Uşaqlar "Əlibaba və qırx quldur" baleti, "Azərbaycan gəncləri" odası, digər musiqi əsərlərinin, 300-dən çox mahnının müəllifidir. Tamaşalara musiqi yazıb.

**31 may 1963** – Əməkdar artist, tanınmış xanəndə Zülfi (Zülfüqar) Səməd oğlu Adıgözəlov (1898, Şuşa – 1963) vəfat edib.

**31 may 1974** – Bakıda Azərbaycan peşəkar milli teatrının 100 illik yubileyinə həsr olunmuş təntənəli mərasim keçirilib. Respublikanın rəhbəri – Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev mərasimdə çıxış edib.

**31 may 2018** – Prezident İlham Əliyev Xalq yazıçısı İsa Muğannanın 90 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb.

### Dünya

**27 may 1840** – İtalyan bəstəkarı və skripkaçısı Nikkollo Paqanini (1782-1840) vəfat edib.

**28 may 1779** – İngilis şairi, mütəfəkkir Tomas Mur (Thomas Moore; 1779-1852) anadan olub.

**28 may 1934** – Gürcüstanın Xalq artisti Liya Eliava (1934-1998) anadan olub. Azərbaycanda "Dəli Kür" (Şahnigar), "Tütək səsi" (Sayalı) filmlərinə çəkilib.

**29 may 1874** – İngilis yazıçısı, filosof, jurnalist Gilbert Çesterton (Gilbert Keith Chesterton; 1874-1936) anadan olub. Əsərləri: "Əbədi insan", "Şar və xaç", "Uçan meyxana" və s.

**29 may 1953** – Rusiyanın Xalq artisti Aleksandr Abdulov (1953-3.1.2008) anadan olub. Çəkildiyi filmlər: "Sevdiklərinizdən ayrılmayın", "Ən məftunedici və cazibədar", "Məhbəs romansı" və s.

**30 may 1778** – Fransız yazıçısı, şair, mütəfəkkir və tarixçi Volter (əsl adı Fransua-Mari Arue; 21.11.1694 – 1778) vəfat edib.

**30 may 1937** – Rusiyanın Xalq artisti Aleksandr Demyanenko (1937-1999) anadan olub. Filmləri: "Qafqaz əsiri", "İvan Vasilyeviç peşəsini dəyişir" və s.

**31 may 1809** – Avstriya bəstəkarı Frans Yozef Haydn (Franz Joseph Haydn; 31.3.1732-1809) vəfat edib. Simfoniyaların, opera, sonata, oratoriya və s. əsərlərin müəllifidir.

**31 may 1887** – Fransız şairi, Nobel mükafatı laureatı (1960) Sen-Jon Pers (Saint-John Perse; 1887-1975) anadan olub.

**Hazırladı: V.Orxan**

# Yazıçı-şair Sevinc Ağa Xəlilqızının yaradıcılıq gecəsi keçirilib

Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Yasamal rayon MKS-nin M.Ş.Vazeh adına Mərkəzi Kitabxanasının dəstəyi ilə Atatürk Mərkəzində kitabxananın fəxri oxucusu, yazıçı-publisist, şair Sevinc Ağa Xəlilqızının yaradıcılıq gecəsi keçirilib.

Atatürk Mərkəzinin baş redaktoru Dəyanət Osmanlı tədbiri açaraq yazıçının yeni əsəri – "Sevgi yelkəni" romanı haqqında məlumat verib.

Sevinc Ağa Xəlilqızı iştirakçıları salamlayaraq "Anamın gülüstanı", "Qarabağ əfsanələri", "Məryəm", "Cinayətin izi ilə", "Əlvida söyləmədən", "Könül səhifəm", həmçinin Yasamal rayon MKS-nin layihəsi əsasında yazdığı "Bu dünyanın fidanları" və digər kitabları, yeni işıq üzü görən romanı haqqında söz açıb. O, bir sıra kitablarının ərsəyə gəlməsində böyük əməyi olan Yasamal rayon MKS-nin kollektivinə təşəkkürünü bildirib.

MKS-nin direktoru tarix üzrə fəlsəfə doktoru Lətifə Məmmədova qeyd edib ki, Sevinc Ağa Xəlilqızının yazdığı səkkiz kitabdan altısını və "Uşaqlar Tanrının səltənətidir" adlı elektron antologiyanı M.Ş.Vazeh adına Mərkəzi Kitabxananın layihələri əsasında ərsəyə gətirib. Kitabxanada həyata keçirilən layihələrdə Sevinc Ağa Xəlilqızının ən fəal yazıçılardan biri olduğunu deyən Lətifə Məmmədova ona fəxri fərman təqdim edib.

Vətən müharibəsi şəhidi polkovnik-leytenant Xeyrulla İbrahimovun anası Xalidə Zeynalova müəllifin oğluna həsr etdiyi "Şəhid anası" şeirindən necə təsirləndiyini söyləyib.

Yazıçı Lətafət Ağayeva, şair, nasir Ramiz Oğuz Həsənov, MKS-nin 3 nömrəli kitabxana filialının müdiri Arzu Xudayarova, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi İctimai-Siyasi Sənədlər Arxivinin şöbə müdiri Lalə Hacıyeva, Azərbaycan Milli Aerokosmik Agentliyinin T.İsmayılov adına Təbii Ehtiyatların Kosmik Tədqiqi İnstitutunun muzeyinin direktoru



Səbinə İsmayılova və digər çıxış edənlər Sevinc Ağa Xəlilqızının əsərləri haqqında fikirlərini bölüşüb, ona yeni yaradıcılıq uğurları arzulayıblar.

Tədbirdə Rəşid Behbudov adına Dövlət Mahnı Teatrının solisti Günay Məmmədova "Şükriyyə", "Sənə də qalmaz" mahnılarını oxuyub.

# Azərbaycanlı dirijorun rəhbərliyi ilə Rusiyada silsilə layihələr təşkil edilib

A.S.Puşkin adına Nijni Novqorod Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının baş dirijoru Əməkdar artist Əyyub Quliyevin rəhbərliyi ilə silsilə konsert-tamaşa layihələri təqdim olunub. Əsas əlamətdar hadisələrdən biri də dahi Azərbaycan bəstəkarı Fikrət Əmirovun "1001 gecə" baletinin nümayişi olub.



Yerli tamaşaçılar tərəfindən böyük maraqla qarşılanan səhnə əsərlərində Nijni Novqorod Dövlət Opera və Balet Teatrının balet heyəti ilə bərabər, teatrın simfonik orkestri və xoru da yer alıb.

Silsilə nümayişlər "Viva opera" konserti ilə başa çatıb. Teatrın 12 solistinin iştirakı ilə keçən konsert rus bəstəkarları P.Çaykovski, M.Musorqski, S.Raxmaninov, A.Arenski və N.Rimski-Korsakov, eləcə də Avropa bəstəkarları C.Verdi, C.Puççini, J.Bize, J.Massnenin yaradıcılığına həsr olunub. Proqramın açılışında səslənən Fikrət Əmirovun simfonik süitası isə gecəyə xüsusi rəng qatıb.

Konsertdən sonra teatrın direktoru Tatyana Mavrina və bədii rəhbər Aleksey Trifonov azərbaycanlı dirijora təşəkkürlərini bildirərək, əməkdaşlıq üçün onu yenidən Nijni Novqoroda dəvət ediblər.

# Ölkəmizin işgüzar turizm potensialı Almaniyada təbliğ olunub

Azərbaycan Turizm Bürosunun təşkilatçılığı ilə ölkəmizin işgüzar turizm imkanları Almaniyada – "IMEX Frankfurt" sərgisində təbliğ edilib. 23-25 may tarixlərində Frankfurt şəhərində keçirilən ənənəvi sərgi dünya üzrə işgüzar tədbirlər sənayesinin ən mühüm tədbirlərindən biri hesab olunur.

Dövlət Turizm Agentliyindən verilən məlumata görə, sərgidəki milli stenddə Azərbaycan Turizm Bürosu ilə yanaşı, Heydər Əliyev Mərkəzi, Bakı Konqres Mərkəzi də daxil olmaqla ümumilikdə 10 yerli tərəfdaş təmsil olunub. Stenddə keçirilən görüşlərdə digər ölkələri təmsil edən nümayəndələrə Azərbaycanın müasir və geniş çeşidli xidmətlər təklif edən işgüzar turizm infrastrukturu, Heydər Əliyev Mərkəzi, Bakı Konqres Mərkəzi, Bakı Ekspo Mərkəzi kimi beynəlxalq səviyyəli tədbirlərin keçirildiyi məkanlar, eləcə də hotellər və irimiqyaslı biznes tədbirlərinə ev sahibliyi etmə potensialı haqqında məlumat verilib.

Bu il "IMEX Frankfurt" sərgisinə 150-dən çox ölkədən nümayəndələr qatılıb.




Məlumat üçün bildirək ki, 2023-cü ildə Azərbaycan işgüzar turizmi təşviq edəcək bir sıra tədbirlərə – 74-cü Beynəlxalq Astronavtika Konqresi, Avropa Gənclər Parlamentinin 99-cu sessiyası, Avropa Cranio Maksillo Üz Cərrahiyyəsi Assosiasiyasının Regional Konqresi, həmçinin 2024-cü ildə "University Scholars Leadership" simpoziumuna ev sahibliyi etməyə hazırlaşır.

# "Atterzee gölündəki ada" 53,2 milyon dollara satılıb

Avstriyanın məşhur rəssamlarından biri, "Gənclik stili"nin tanınmış nümayəndəsi Qustav Klimtin (1862-1918) "Atterzee gölündəki ada" əsəri "Sotheby`s" hərrac evinin Nyu-Yorkda keçirdiyi hərracda 53,2 milyon dollara satılıb.



Avstriyanın ən bahalı rəssamı titulunu daşıyan Q.Klimtin 1901-1902-ci illərə aid əsərini Yaponiyadan anonim kolleksiyaçı alıb. "Atterzee gölündəki ada" əsəri nasist Almaniyasının təqiblərindən qaçaraq ABŞ-yə mühacirət edən vyanalı qalerist Otto Kallirin kolleksiyasına daxil olub və ilk dəfə 1940-cı ildə Nyu-York şəhərində "Avropadan xilas edilənlər" adlı sərgidə nümayiş olunub.

Qustav Klimtin indiyədək hərraclarda ən yüksək qiymətə satılan əsəri "Tozağacı meşəsi" tablosudur. Ötən ilin noyabr ayında hərraca çıxarılan əsər 104,2 milyon dollara satılmışdı.

# Ədəbiyyat üzrə Beynəlxalq Buker Mükafatı bolqar yazıçıya verilib

İngilis dilində ədəbiyyat üzrə ən nüfuzlu təltif sayılan Beynəlxalq Buker Mükafatının (The International Booker Prize) 2023-cü il üzrə qalibi bolqarıstanlı yazıçı və şair Georgi Qospodinov olub. Onun ingilis dilinə tərcümə olunmuş "Zaman sığınacağı" romanı mükafata layiq görülüb.




Bu barədə Londonda keçirilən mərasimdə münsiflər heyətinin sədri, Mərakeş əsilli fransız yazıçısı Leyla Slimani bildirib.

Mükafatı alan 55 yaşlı yazıçı romanını "yaddaş və zaman" haqqında hekayə adlandırıb.

Buker Mükafatı (The Booker Prize) 1968-ci ildə "Buker-Makkonnel" (Booker, McConnel) qida şirkətinin dəstəyi ilə təsis edilib. İngilis dilində yazan müəlliflərə verilən mükafatın məbləği 50 min funt-sterlinqdir.

2005-ci ildə mükafata əlavə olaraq Beynəlxalq Buker Mükafatı da təsis edilib. Bu mükafat ingilis dilinə tərcümə olunmuş və Böyük Britaniyada çap edilmiş əsərlərə verilir. Onun da məbləği 50 min funt-sterlinqdir və müəllif ilə əsərin tərcüməçisi arasında bərabər bölünür.

Mövcud qaydalara görə, Georgi Qospodinov və onun romanını ingilis dilinə tərcümə etmiş amerikalı Angela Rodel hərəyə 25 min funt-sterlinq (31 min dollar) pul mükafatı alacaq.

# Qırğızıstanda "Dünya xalqlarının dastanları" festivalı keçirilib

Qırğız Respublikasının Oş şəhərində qırğız yazıçısı Çingiz Aytmatovun 95 illik və qazax yazıçısı Muxtar Auezovun 125 illik yubileylərinə həsr olunmuş VII Beynəlxalq "Dünya xalqlarının dastanları" Festivalı keçirilib.



Qırğız Respublikasının Mədəniyyət, İnformasiya, İdman və Gənclər Siyasəti Nazirliyi, MDB-nin Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondu, "Manas" və Çingiz Aytmatov Milli Akademiyası, "Art-Araba" İctimai Fondunun təşkilatçılığı ilə 17-20 may tarixlərində gerçəkləşən festivala 20-dən çox ölkədən elm, mədəniyyət və yaradıcılıq təşkilatları nümayəndələri qatılıb.

Festivalda Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu da təmsil olunub. Fonddan bildirilib ki, festival çərçivəsində "Zaman və məkanda dastançının mətni" beynəlxalq elmi-praktik simpoziumu, sənətkarlıq və xalq yaradıcılığı sərgisi, rəvayətçilərin və dastançıların müsabiqəsi, eləcə də "Mədəni müxtəlifliyin paradı" adlı teatrlaşdırılmış qala-konsert təşkil olunub.

Simpoziumda Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun layihə rəhbəri Mirbek Karıbayev də çıxış edib. Tədbirdə azərbaycanlı manassünas Adil Cəmilin Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu tərəfindən nəşr edilmiş "Manas eposu və türk dastançılıq ənənələri" kitabının təqdimatı keçirilib. Təqdimatda çıxış edən tanınmış türkoloq, tarix üzrə elmlər doktoru Süleyman Kayıpov kitabın "Manas" dastanına yeni və zəruri yanaşmanı ifadə etdiyini və geniş oxucu kütləsi üçün nəzərdə tutulduğunu diqqətə çatdırıb. Simpoziumda 20-dək ölkədən 60-a yaxın alim iştirak edib.

# "Rok-n-rolun kraliçası" dünyadan köçdü



Dünyaca məşhur amerikalı müğənni Tina Terner (Turner) mayın 24-də, ömrünün 84-cü ilində İsveçrədə vəfat edib. 2013-cü ildə bu ölkənin vətəndaşlığını qəbul edən müğənni Sürix kantonunda yaşayırdı.

Əsl adı Anna Mey Bullok (Anna Mae Bullock) olan müğənni 1939-cu il noyabrın 26-da ABŞ-də, Tennesi ştatında anadan olub. İlk vaxtlar gecə klublarında müğənni kimi çıxış edib. Sonra gələcək həyat yoldaşı gitaraçı İka Terner (Ike Wister Turner) onu peşəkar səhnəyə gətirib. Həyat yoldaşının soyadını götürən və adını da Tina olaraq dəyişən ifaçı "Ike and Tina Turner Revue" qrupunda məşhurlaşır.

16 illik evliliyin son dövrləri cütlük üçün məyus keçsə də müğənni Ternerdən ayrıldıqdan (1978) sonra onun soyadından imtina etməyib. Çünki musiqi aləmi onu artıq belə tanıyırdı. 80-ci illərdə solo ifaçı kimi səhnəyə qayıdan müğənni musiqi albomları ilə dünya şöhrəti qazanır.

İfaçılıq temperamentinə və səhnə ekspressivliyinə görə ona "Rok-n-rolun kraliçası" adı verilmişdi. Albomları milyonlarla tirajla yayılan Tina Ternerin 1988-ci ilin 16 yanvarında Braziliyanın "Marakana" stadionunda verdiyi konsertə 188 min nəfər bilet alaraq gəlmişdi və müğənni bununla "Ginnesin rekordlar kitabı"na düşdü.

Səkkiz dəfə Amerika Səsyazma Akademiyasını "Qremmi" mükafatına layiq görülən Tina Terner alman prodüser Ervin Baxla ailə qurduqdan sonra İsveçrəyə köçüb, 2013-cü ildə ABŞ vətəndaşlığından çıxaraq bu ölkədə vətəndaşlıq alıb. Müğənninin ömrünün son illəri ağır xəstəliklərlə (insult, xərçəng) mübarizədə keçib.

**V.Kamal**




Olaylar, faktlar (27–31 may)

### 570 il əvvəl...



**29 may 1453-cü ildə** Sultan Mehmetin (Fateh) başçılıq etdiyi Osmanlı ordusu Bizans (Şərqi Roma) imperiyasının paytaxtı Konstantinopolu fəth edib. 330-cu ildə Bizans imperatoru Konstantin tərəfindən əsası qoyulan şəhər strateji əhəmiyyətinə görə daima böyük dövlətlərin mübarizə obyekti olmuşdu. Şəhərin türklər tərəfindən fəthi onun əldən-ələ keçməsinə son qoydu. İstanbul adlandırılan şəhər Osmanlı dövlətinin paytaxtı elan edildi.

### 468 il əvvəl...

**29 may 1555-ci ildə** Səfəvi dövləti ilə Osmanlı imperatorluğu arasında Amasya sülh müqaviləsi imzalanıb. Səfəvi-Osmanlı müharibəsinin (1514-1555) birinci mərhələsi başa çatıb. Qərbi Gürcüstan (İmeretiya, Meqreliya, Quriya) Osmanlının, Gürcüstanın şərq vilayətləri və Qərbi Azərbaycan (indiki Ermənistan), eləcə də şimallı-cənublu bütün Azərbaycan torpaqları Səfəvi dövlətinin tərkibinə keçib.

### 150 il əvvəl...

**29 may 1873-cü ildə** çar Rusiyası Xivə xanlığını özünə birləşdirib. Bir qədər əvvəl Buxaranın işğalı hərbi toqquşmalarla müşayiət olunsa da, Xivənin ələ keçirilməsinə yerli əhali faktiki müqavimət göstərmədi.

### 110 il əvvəl...

**30 may 1913-cü ildə** Balkan müharibəsinin (1912-1913) yekunları ilə bağlı London da müqavilə bağlanıb. Osmanlı imperiyası Krit adası istisna olmaqla, Balkanlardakı bütün ərazilərindən əl çəkib.

### 105 il əvvəl...

**27 may 1918-ci ildə** Zaqafqaziya Seyminin süqutundan (26 may) sonra qurumun azərbaycanlı deputatları Tiflisdə fövqəladə iclas keçirərək Azərbaycanın müvəqqəti Milli Şurasını yaradıblar. Azərbaycanın ilk parlamenti kimi fəaliyyətə başlayan 44 nəfərlik Milli Şuranın sədri Məhəmməd Əmin Rəsulzadə, müavini Əhməd bəy Ağayev seçilib.

**28 may 1918-ci ildə** Tiflisdə Azərbaycan Milli Şurasının iclasında Azərbaycan Xalq Cümhuriyyətinin yaradıldığı elan olunub. İclasda "İstiqlal Bəyannaməsi" qəbul edilib. Fətəli xan Xoyskinin başçılığı ilə ilk hökumət təsdiqlənib. Milli hökumət iyunun 16-dək Tiflisdə fəaliyyət göstərdi, sonra Gəncəyə köçdü.

### 63 il əvvəl...



**27 may 1960-cı ildə** Türkiyədə hərbi çevriliş baş verib. Ordu generalı Camal Gurselin başçılığı ilə Milli Birlik Komitəsi ölkədə tam hakimiyyəti ələ alıb. Türkiyə Böyük Millət Məclisi və hökumətin fəaliyyəti dayandırılıb. Baş nazir Adnan Menderes, prezident Cəlal Bayar başda olmaqla bütün hökumət üzvləri və siyasi rəhbərlik həbs olunub. 1961-ci ildə hərbi tribunalın qərarı ilə baş nazir Menderes və daha iki nazir korrupsiya ittihamı ilə edam edildi.

### 32 il əvvəl...

**30 may 1991-ci ildə** erməni təxribatçılarının Azərbaycana qarşı növbəti terror aktı baş verib. Dağıstanın Xasavyurt stansiyası yaxınlığında Moskva-Bakı sərnişin qatarında törədilən partlayış nəticəsində 11 nəfər həlak olub, 22 nəfər yaralanıb.

### 31 il əvvəl...

**27 may 1992-ci ildə** Azərbaycan Parlamenti "Azərbaycan Respublikasının Dövlət Himni haqqında" qanun qəbul edib. 1919-cu ildə bəstəkar Üzeyir Hacıbəylinin şair Əhməd Cavadın sözlərinə yazdığı "Azərbaycan marşı" Dövlət himni kimi təsdiq edilib.

**Hazırladı: V.Orxan**

Azərbaycan Milli Xalça Muzeyinin kollektivi Əməkdar mədəniyyət işçisi, xalçatoxuma texnologiyalarının mahir bilicisi

**Zəhra Əliyevanın**

vəfatı ilə əlaqədar mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

***

Azərbaycan İstiqlal Muzeyinin kollektivi Cənubi Azərbaycanda 21 Azər hərəkatının öncüllərindən biri, milli hökumətin müdafiə naziri olmuş general Cəfər Kavianın oğlu

**Marks Kavianın**

vəfatı ilə əlaqədar mərhumun ailə üzvlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri**

# MƏDƏNİYYƏT

**Qəzet 1991-ci ilin yanvarından çıxır**

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)

**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya № AB 022279. İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5044. **Sifariş:** 1372
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MƏDƏNİYYƏT QƏZETİ REDAKSİYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641